# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 aprel 2026-cı il, çərşənbə
№ 063 (7130)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!




## Elmin və mənəvi kamilliyin zirvəsində

Bax səh. 3

## İki qitədən 3 səfir Bakıda...







Bax səh. 2

## Bakı dünyanın diqqət mərkəzində...

Bax səh. 2

## "AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi"

Aprelin 14-də Bakıda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) "AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi" mövzusunda beynəlxalq konfransın açılış mərasimi keçirilib.Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Azərbaycanın regional təhlükəsizlik təşəbbüslərinə verdiyi töhfələrin onun artan rolunu aydın şəkildə nümayiş etdirdiyini deyib. O, bildirib ki, ölkəmizin AQEM-ə sədrliyi çərçivəsində qarşılıqlı etimadın gücləndirilməsi xüsusilə əhəmiyyətlidir. Çünki gender bərabərliyi, sosial inkişaf və qadınların səlahiyyətləndirilməsi artıq seçim deyil, zərurət kimi ön plana çıxır.

Açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bildirib ki, bu gün qadınların fəal iştirakı cəmiyyətin inkişafında mühüm rol oynayır. Onlar uğurlu sahibkarlar, elm adamları, rəssamlar və liderlərdir.Azərbaycanda qadınların rolunun daim yüksək qiymətləndirildiyini, onlara hörmətin mədəniyyətimizin və ənənələrimizin həmişə bir hissəsi olduğunu söyləyən Leyla Əliyeva deyib: "Bu gün bütün Azərbaycan üzrə qadınlar biznes qurur, ictimai təşəbbüslərə rəhbərlik edir və real təsir yaradırlar. Təkcə keçən il qadınlar Azərbaycanda məşğul əhalinin təxminən 50 faizini təşkil edirdi ki, bu da onların iqtisadiyyatımızda fəal və vacib rol oyandıqlarını göstərir".

O, qeyd edib ki, bu gün Azərbaycanın AQEM-ya sədrliyinin davamlı inkişaf və qərar qəbuletmədə qadınların səslərini fəal şəkildə dəstəklədiyini görmək çox xoşdur. "AQEM Qadınlar Şurasının yaradılması vacib...

Bax səh. 3



Bax səh. 4

## Yeni Azərbaycan Partiyasının üzvləri üçün Çin dili kursunun açılış mərasimi keçirilib

## Bank və maliyyə sektorunda sabitlik təmin olunub

Bax səh. 5

## BMT: Yaxın Şərq münaqişəsinin hərbi həlli yoxdur

Bax səh. 6

## Qeyri-neftə əsaslanan inkişaf göstəriciləri

2026-cı ilin yanvar-mart aylarında ölkəmizdə 29 milyard 703,2 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,2 faiz azalsa da, qeyri neft-qaz sektorunda 0,2 faiz artıb. ÜDM istehsalının 33,5 faizi sənaye, 11,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,6 faizi tikinti, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2 faizi informasiya və rabitə sahələrinin, 23,3 faizi digər xidmət sahələrinin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 11,7 faizini təşkil edib.

Birinci rübdə informasiya və rabitə sahələrində əlavə dəyər real ifadədə 9,2 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində 3,7 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 2,9 faiz, nəqliyyat və anbar təsərrüfatı sahələrində 1,5 faiz, digər xidmət sahələrində 0,3 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 1,2 faiz, sənayedə 0,2 faiz artıb.

ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Belə ki, əlavə dəyərin təxminən 70 faizi qeyri-neft mənbələrinin üzərində cəmləşib ki, bu da nominal ifadədə 20 milyard manata yaxın milli məhsul deməkdir. ÜDM-də əsas əlavə dəyər yaradan sahələrdən biri olan sənaye sektorunda 14,9 milyard manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,2 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin emal bölməsində daha çox artım avtomobil, qoşqu və yarımqoşquların istehsalı, əczaçılıq məhsullarının istehsalı, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri, elektrik avadanlıqlarının istehsalı, toxuculuq sənayesində yüksək istehsal qeydə alınıb.

Sənayenin qeyri-neft bölmələrində əlavə dəyər təqribən 4 faizə yaxın  artıb. Bu amil də sənayeləşmənin əsas strukturlarının...

Bax səh. 4




## Hörmüz boğazında qarşıdurma güclənir

Bax səh. 6

## Ermənistanda seçkiöncəsi gərginlik



Bax səh. 7

# İki qitədən 3 səfir Bakıda...

## Prezident İlham Əliyev Somalinin Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Somali Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdinur Dahir Fidounu qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Qəbula görə minnətdarlığını bildirən Abdinur Dahir Fidou Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Hasan Şeyx Mahmuda çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı ötən il ölkələrimiz arasında dostluq münasibətlərində yeni səhifə açmış Somali Prezidentinin Azərbaycana rəsmi səfərini xatırladaraq, həmin səfər çərçivəsində ikitərəfli əlaqələrin inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığını, əməkdaşlığın genişləndirilməsi məqsədilə bir sıra sənədlərin imzalandığını vurğuladı.

Azərbaycan Prezidenti ölkələrimiz arasında yaxşı siyasi münasibətlərin olduğunu deyərək, iqtisadi əməkdaşlığı genişləndirməyin önəminə toxundu.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Somalinin Azərbaycanda səfiri təyin olunmasından məmnunluğunu bildirən Abdinur Dahir Fidou ölkələrimiz arasında münasibətlərin inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi.

Söhbət zamanı ikitərəfli və çoxtərəfli formatlarda, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi, son dövrlərdə təmasların intensivləşdiyi və qarşılıqlı səfərlərin sayının artdığı vurğulandı.

Görüşdə iqtisadiyyat, ticarət və digər sahələrdə əlaqələri genişləndirmək üçün yaxşı potensialın olduğu bildirildi.

Somali Prezidentinin ölkəmizə rəsmi səfəri çərçivəsində imzalanmış sənədə əsasən, bu ölkədə "ASAN xidmət" təcrübəsinin tətbiqi ilə bağlı işlərin davam etdirildiyi vurğulandı.

Elm və təhsil sahələrində əməkdaşlığa toxunuldu, hələ sovet dövründə Somalidən çoxsaylı tələbənin ölkəmizdə təhsil aldığı və bu ənənənin hazırda da davam etdiyi qeyd olundu. Bu xüsusda Somalidən olan tələbələrin Azərbaycanda Heydər Əliyev adına təqaüd əsasında təhsil aldıqları bildirildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Kolumbiyanın Azərbaycanda yeni təyin olunmuş səfiri İlham Əliyevin qəbulunda



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nelsi Rakel Munar Xaramiyonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Kolumbiyanın coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, ikitərəfli münasibətlərin yaxşı səviyyədə qurulduğunu dedi və müxtəlif sahələrdə əməkdaşlığı genişləndirməyin əhəmiyyətinə toxundu.

Prezident İlham Əliyev siyasi əlaqələrimizə əsaslanaraq iqtisadi, investisiyalar, turizm və digər sahələrdə münasibətləri dərinləşdirməyin önəmini vurğuladı.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı.

Ölkəmizdə Kolumbiyanın ilk qadın səfiri olmasından şərəf hissi duyduğunu deyən Nelsi Rakel Munar Xaramiyo siyasi dialoqu və əlaqələrimizi möhkəmləndirmək, həmçinin əməkdaşlıq üçün yeni imkanların aşkarlanması istiqamətində səylə çalışacağını bildirdi.

Səfir Kolumbiya tərəfindən Azərbaycanda ispan dilinin təşviqi məqsədilə bu dilin tədrisi üzrə kursların təşkil olunduğunu, azərbaycanlı tələbələrin və mütəxəssislərin bu proqramda fəal şəkildə iştirak etdiyini məmnunluqla vurğuladı.

Söhbət zamanı ötən il Azərbaycanla Kolumbiya arasında "ASAN xidmət" modelinin bu ölkədə tətbiqi ilə bağlı anlaşma memorandumunun imzalandığı xatırlandı.

Görüşdə Azərbaycan ilə Kolumbiya arasında kənd təsərrüfatı, ərazilərin minalardan təmizlənməsi, təhsil, mədəniyyət və digər sahələrdə münasibətləri genişləndirməklə bağlı fikir mübadiləsi aparıldı.

Azərbaycanla Kolumbiyanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığına toxunuldu, bu xüsusda hər iki ölkənin BMT, Qoşulmama Hərəkatı və digər çoxtərəfli platformalarda bir-birini dəstəklədiyi məmnunluqla vurğulandı.

Söhbət zamanı parlamentlərarası əməkdaşlığın möhkəmləndirilməsi, qarşılıqlı təmasların, həmçinin səfərlərin sayının artırılması və maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

## Azərbaycan Prezidenti Esvatininin ölkəmizdə yeni təyin olunmuş səfirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Esvatini Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sibusisive Mnqomezulunu qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Esvatininin Kralı Əlahəzrət III Msvatinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Esvatini Kralına çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçirilmiş sammiti zamanı Esvatini Kralının ölkəmizə səfərini məmnunluqla xatırladaraq, onun gələn ay Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun Sessiyasında iştirak edəcəyinə ümidvarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Esvatini Krallığı arasında siyasi dialoqun səviyyəsindən məmnunluğunu ifadə etdi, digər sahələrdə əməkdaşlığı genişləndirmək üçün yaxşı potensialın olduğunu dedi.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Prezident İlham Əliyevin Azərbaycana uğurla rəhbərlik etdiyini vurğulayan səfir ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası, həmçinin iqtisadi inkişaf sahəsində əldə edilmiş uğurlar ilə bağlı təbriklərini çatdırdı. O, həmçinin regionda sülhün əldə edilməsində dövlətimizin başçısının diplomatik səylərinə və roluna toxunaraq, bununla bağlı da Prezident İlham Əliyevi təbrik etdi.

Səfir ikitərəfli əməkdaşlığımızın dərinləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

O, ölkəsinin Afrika İttifaqının Sülh və Təhlükəsizlik Şurasının sədri qismində Afrika qitəsində sülhün təmin olunması istiqamətində ardıcıl səylərini davam etdirdiyini vurğuladı.

Söhbət zamanı Azərbaycan ilə Esvatininin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi qeyd edildi, energetika, elm, təhsil, humanitar, turizm, ətraf mühitin mühafizəsi, mədəniyyət və digər sahələrdə münasibətlərin qurulması üçün əlverişli imkanların olduğu bildirildi, potensial əməkdaşlıq sahələri ilə bağlı müzakirələrin aparılması üçün müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin önəminə toxunuldu.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# Bakı dünyanın diqqət mərkəzində...

## COP29-dan WUF13-ə

*Mübariz FEYİZLİ*

Davamlı multiregional xarici siyasət kursu beynəlxalq səviyyədə Azərbaycana böyük nüfuz qazandırıb. Ölkəmiz öz siyasətində bir qayda olaraq xoş məramdan çıxış edir, qarşılıqlı maraqları, beynəlxalq hüququ və ədalət prinsipini önə çəkir. Eyni zamanda, respublikamızda möhkəm sabitlik, xalq-iqtidar həmrəyliyi mühiti var, cəmiyyət tarixdən gələn tolerantlıq ənənələrinə sadiqlik nümayiş etdirir.

Bütün bu kimi fərqli cəhətlər də Azərbaycanı dünyanın diqqət mərkəzinə gətirir. Beynəlxalq birliyin etimadının və inamının nəticəsidir ki, Azərbaycanın qısa müstəqillik tarixində respublikamız "Eurovision - 2012" mahnı yarışması, Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, III MDB Oyunları kimi mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edib. Bakıda müntəzəm qaydada Mədəniyyətlərarası dialoq forumları keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü ilə başlayan Bakı prosesi İslam ölkələrinin və Avropa İttifaqına (Aİ) daxil olan dövlətlərin yüksəksəviyyəli rəsmilərini bir araya gətirən nadir platformalardan biridir. 2024-cü ilin noyabr ayında Bakıda BMT-nin ən böyük tədbirlərindən biri -COP29 baş tutdu. Cari ilin may ayında isə paytaxtımız qlobal şəhərsalma forumunun qonaqlaarını qarşılayacaq...




**Azərbaycanın ev sahibliyi etdiyi COP29-un tarixi nəticələri**

COP29-a ev sahibliyi hüququnun Azərbaycana verilməsi də ölkəmizə və onun Liderinə beynəlxalq səviyyədə bəslənilən böyük etimadın göstəricisi idi. Respublikamızın mühüm beynəlxalq tədbirə hazırlaşması üçün cəmi bir il vaxtı var idi. Məsuliyyətli dövlət olan Azərbaycan tədbirə yüksək səviyyədə hazırlıqlar gördü və uğurla keçən tədbir ölkəmizin liderlik keyfiyyətlərini bir daha dünyanın diqqətinə çatdırdı. Tədbirdə iştirak etmək üçün 76 mindən çox iştirakçı qeydiyyatdan keçib, həmçinin 80 dövlət və hökumət başçısı Bakıya təşrif gətirib. İştirakçıların böyük hissəsi, yəni 57 min 160 nəfər əcnəbilər olublar. COP29 çərçivəsində Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti təşkil olunub.

Hər şeyə müqayisədə daha obyektiv qiymət vermək mümkündür. COP-la bağlı da qarşımızda iki nümunə var - Bakı (COP29) və Belem (COP30) nümunələri. Bu iki nümunə bir-birindən kəskin şəkildə fərqlənir. Braziliyanın ev sahibliyi etdiyi tədbirdə yüksəksəviyyəli nümayəndələrin iştirakı əhəmiyyətli dərəcədə məhdud olub. Bundan başqa, tədbirdə daxili ziddiyyətlərdən qaynaqlanan bir sıra problemlər yaşanıb, gündəlik dəqiq olmayıb, təşkilat komitəsi tez-tez dəyişib. Qonaqların yerləşdirlməsində də müəyyən çətinliklər yaşanıb. Konfransın son günündə baş verən yanğın da COP30-da qeydə alınan xoşagəlməz hadisələr sırasındadır.

Məsuliyyətli dövlət olan Azərbaycanın ev sahibliyi ilə keçirilən COP29 isə tarixə nümunəvi bir tədbir kimi düşüb. Azərbaycanın COP29-a yüksəksəviyyəli hazırlıqlar görməsi və Bakıda yaxşı nəticələrin əldə olunması Azərbaycanın gücünün və məsuliyyətinin təsdiqi ilə yanaşı, həm də ölkəmizin iqlim çağırışlarına çox həssas yanaşmasının bariz ifadəsidir. Respublikamız hər zaman öz gündəliyini qlobal çağırışlarla uzlaşdırıb. O cümlədən Azərbaycan iqlim dəyişiklikləri ilə bağlı qlobal çağırışları dəstəkləyən və buna öz töhfələrini verən dövlətdir. Ölkəmiz 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını (UNFCCC) təsdiqləyib. Respublikamız Milli Məclisin 18 iyul 2000-ci il tarixli Qərarı ilə Kioto Protokoluna qoşulub. Azərbaycan həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşmasını imzalayıb.

Azərbaycanın müsbət reallıqları, həmçinin dövlətin qətiyyətli siyasi iradəsi COP29-da substantiv nəticələrin əldə olunmasına güclü şəkildə təsir göstərib. Hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunmasını COP29-un mühüm uğurlarından biri kimi dəyərləndirrmək mümkündür. Bakı Maliyyə Məqsədi, inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunmasına rəhbərlik etməsini nəzərdə tutan əsas hədəfləri müəyyənləşdirir. Xatırladaq ki, bu göstərici əvvəllər 100 milyard dollar olub. Eləcə də, COP29 çərçivəsində İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılması böyük nailiyyətdir.

**Ölkəmizin şəhərsalma təcrübəsi beynəlxalq müstəvidə**

May ayında Bakıda təşkil ediləcək Ümumdünya Şəhərsalma Forumu Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda ilk dəfə keçiriləcək. COP29-dan sonra BMT-nin Ümumdünya Şəhər Forumuna (WUF13) ev sahibliyi hüququnun ölkəmizə verilməsini şərtləndirən ən mühüm amillərdən biri Azərbaycanın şəhərsalma, xüsusilə də işğaldan zərər çəkmiş ərazilərdə yaşayış məntəqələrinin bərpası sahəsində qazandığı təcrübəyə beynəlxalq səviyyədə marağın artmasıdır. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13 üzrə milli koordinator Anar Quliyev foruma hazırlıq çərçivəsində müxtəlif məkanlarda baş tutan beynəlxalq tədbirlərdə ölkəmizin təcrübəsini iştirakçıların diqqətinə çatdırıb. Komitə sədri respublikamızın əlçatan mənzil sahəsində əldə etdiyi təcrübəni, həmçinin "Yenidən və daha yaxşı qur" prinsipi əsasında Qarabağ və Şərqi Zəngəzur ərazilərində həyata keçirilən yenidənqurma işlərini və əhalinin doğma torpaqlara qayıdışını təmin edən transformativ yanaşmaları iştirakçılarla bölüşüb.

2024-cü ilin əvvəlində təqdim olunan Bakı şəhərinin Baş Planı ölkəmizin müasir şəhərsalma çağırışlarına yanaşmasını aydın şəkildə nümayiş etdirir. Bakı şəhərinin 2040-cı ilə qədərki dövrdə inkişafına dair Baş Planında bir sıra mühüm prinsiplər əsas götürülüb. Sənəd yaxın illər ərzində Bakı şəhərinin strateji inkişaf istiqamətlərini müəyyən edən əsas ərazi-planlaşdırma sənədidir. Təqdimatda bildirildiyi kimi, Baş Plana uyğun olaraq vahid mərkəzli aqlomerasiya olan Bakı növbəti inkişaf mərhələsində rahat, ekoloji cəhətdən təmiz, mobil, insanyönümlü və inklüziv çoxmərkəzli şəhərə çevriləcək.

Bu gün həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə reallaşdırdığı bərpa modelini fəxrlə təqdim etmək mümkündür. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir.

Bütövlükdə, Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. "Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə 2020-2025-ci illərdə - dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanıb və quruculuq işlərinə başlanıb.

**BMT-dən yüksək qiymət**

Azərbaycanın qlobal şəhərsalma forumuna hazırlıqları BMT səviyyəsində yüksək dəyərləndirilir. "Mən deyə bilərəm ki, Bakı WUF13-ə hazırdır. Azərbaycan tərəfindən üzv dövlətlərə təqdim edilmiş hesabat göstərir ki, bütün hazırlıq işləri yüksək səviyyədə aparılır. UN-Habitat yan tədbirlərə qeydiyyatları və iştirakları koordinasiya edir, artıq forumda iştirak üçün böyük maraq və tələb olduğu məlumdur. Bu, Bakıda şəhər problemlərini müzakirə etmək, praktiki təcrübələri, həll yollarını təqdim etmək və ekspert biliklərini paylaşmaq üçün beynəlxalq iştirakçılar üçün vacib platforma rolunu oynayacaq", - deyə BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax vurğulayıb.

A.Rossbax bildirib ki, WUF13 öncəsi keçirilən iclaslar və müzakirələr qlobal miqyasda şəhər və urbanizasiya məsələlərinə həsr olunmuş önəmli bir gün kimi qiymətləndirilə bilər. Fikirlərinə davam edən icraçı direktor vurğulayıb: "Biz 2016-cı ildə qəbul edilmiş "Yeni Şəhərsalma Gündəliyi"ni nəzərdən keçiririk, artıq 10 ildir ki, bu gündəlik icra olunur. Qarşıdakı 10 il üçün yeni hədəfləri müəyyən etməliyik".

# Elmin və mənəvi kamilliyin zirvəsində

## Bu gün dünya şöhrətli oftalmoloq - alim, akademik Zərifə xanım Əliyevanın anım günüdür

Mənalı həyatları və fəaliyyətləri ilə xalqına, Vətəninə başucalığı gətirən insanların xatirəsi heç vaxt unudulmur. Dünya şöhrətli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva da xatirəsi hər zaman qəlblərdə yaşayacaq insanlardandır.  Təqvimdə aprelin 15-i onun anım günüdür. Zərifə xanım Əliyeva bahar qızıdır. O, 1923-cü il aprelin 28-də qədim Naxçıvanın Şərur rayonunun Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açıb. 15 aprel 1985-ci ildə isə Moskvada vəfat edib.

Zərifə xanım Əliyevanın keçdiyi həyat yolu bir mayaka  bənzəyir - çoxları ona oxşamaq, onun kimi uca məqama çatmağı arzulayır. Biz onun timsalında Azərbaycan qadınlarının ümumiləşmiş obrazını görürük. Zərifə xanım Əliyevanın portret cizgiləri, mənalı həyatı və fəaliyyəti qadınlarımızın zərifliyini və fədakarlığını təcəssüm etdirir.






### Azərbaycanda peşə oftalmologiyasının banisi

Zərifə xanım Əliyeva səmərəli fəaliyyəti, fundamental axtarışları və əldə etdiyi nəticələri ilə Azərbaycan tibb elminə dünya şöhrəti qazandıran alimdir. O, yüksək fərdi keyfiyyətləri ilə fərqlənən bir insan idi. Xarakteri elə formalaşmışdı ki,  üzərinə həmişə daha çətin yük götürməyə çalışırdı. Peşə seçərkən də məhz bu prinsipdən çıxış edib. Həmin dövrdə Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. O zaman bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə isə nəinki oftalmologiya elmi üçün, hətta bütünlükdə respublika üçün mühüm məsələyə çevrilmişdi. Göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini məhz traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə yönəldib.

Zərifə xanım Əliyeva 1968-ci ildən başlayaraq peşə oftalmologiyasının problemləri ilə ciddi məşğul olub. Təsadüfi deyil ki, onun elmi uğurları sırasında peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinə həsr olunmuş tədqiqatları xüsusi yer tutur. Diqqətəlayiqdir ki, böyük siyasətçi Heydər Əliyev respublikamızın tərəqqisi naminə Azərbaycanda sənayeni yeni inkişaf mərhələsinə yüksəltdiyi bir vaxtda Zərifə xanım Əliyeva təzə tikilmiş zavod və fabriklərdə işləyən sadə əməkçilərin qayğısına qalır, onların peşə xəstəlikləri probleminin həlli uğrunda çalışırdı. Zərifə xanım peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərini dünyada ilk araşdıran alimlərdən olub, əslində, elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub. Dünyada bu sahədə ilk elmi tədqiqat laboratoriyasını da məhz o yaradıb. Zərifə xanım, həmçinin apardığı tədqiqatların gedişində “Göz yaşının axmasının fiziologiyası”, “Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri”, “Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti” və s. kimi onlarla elmi məqalələr və monoqrafiyalar çap etdirib.

Zərifə xanım Əliyevanın tədqiqatlarının mühüm bir istiqaməti yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərlə bağlı idi. O, bu problem üzərində iş apararkən çox vaxt bilavasitə sənaye müəssisələrində olur, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi. Elmi tədqiqatların nəticəsi olaraq Zərifə Əliyeva bu gün də müəllim və tələbələrin stolüstü kitabları sayılan monoqrafiyalarını çap etdirməyə nail olub.



### Ana və Heydər Əliyevin ömür-gün yoldaşı olmağın böyük məsuliyyəti

Zərifə xanım Əliyevanın malik olduğu yüksək mənəvi keyfiyyətlər də cəmiyyətimiz üçün gözəl nümunədir. O, elmin zirvəsinə yüksəlsə də, şan-şöhrətə çatsa da, heç vaxt ailə dəyərlərimizi, adət-ənənələrimizi, ana və ömür-gün yoldaşı olmaq missiyalarını arxa plana keçirməyib. Elə Zərifə xanımın başqalarından fərqi, kamilliyi və bütövlüyü də məhz bu kimi keyfiyyətlərindədir.

Zərifə xanım sıradan bir insanın deyil, respublikamızın o dövrdəki rəhbəri və sonralar keçmiş SSRİ-nin Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinədək yüksələn Heydər Əliyevin həyat yoldaşı idi və bunun məsuliyyətini yaxşı başa düşürdü.  Onunla unikal şəxsiyyət olan Heydər Əliyevin ulduzunun barışması saf sevgi əsasında baş tutmuşdu. Onlar ömürlərinin sonunadək aralarındakı böyük məhəbbətə sadiq qaldılar və xalqımıza layiq övladlar böyütdülər. Burada da Zərifə xanımın təmkini, ağılı, ömür-gün yoldaşına böyük sevgisi, ana olmağın məsuliyyətini bütün miqyası ilə dərk etməsi onun ailəsində gözəl ab-havanın yaranmasını şərtləndirirdi.

*Mübariz FEYİZLİ*

# “AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi”

*Nardar BAYRAMLI*

## Bakıda bu mövzuda beynəlxalq konfrans keçirilib

Aprelin 14-də Bakıda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) “AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi” mövzusunda beynəlxalq konfransın açılış mərasimi keçirilib.Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Azərbaycanın regional təhlükəsizlik təşəbbüslərinə verdiyi töhfələrin onun artan rolunu aydın şəkildə nümayiş etdirdiyini deyib. O, bildirib ki, ölkəmizin AQEM-ə sədrliyi çərçivəsində qarşılıqlı etimadın gücləndirilməsi xüsusilə əhəmiyyətlidir. Çünki gender bərabərliyi, sosial inkişaf və qadınların səlahiyyətləndirilməsi artıq seçim deyil, zərurət kimi ön plana çıxır.

Açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bildirib ki, bu gün qadınların fəal iştirakı cəmiyyətin inkişafında mühüm rol oynayır. Onlar uğurlu sahibkarlar, elm adamları, rəssamlar və liderlərdir.Azərbaycanda qadınların rolunun daim yüksək qiymətləndirildiyini, onlara hörmətin mədəniyyətimizin və ənənələrimizin həmişə bir hissəsi olduğunu söyləyən Leyla Əliyeva deyib: “Bu gün bütün Azərbaycan üzrə qadınlar biznes qurur, ictimai təşəbbüslərə rəhbərlik edir və real təsir yaradırlar. Təkcə keçən il qadınlar Azərbaycanda məşğul əhalinin təxminən 50 faizini təşkil edirdi ki, bu da onların iqtisadiyyatımızda fəal və vacib rol oyandıqlarını göstərir”.

O, qeyd edib ki, bu gün Azərbaycanın AQEM-ya sədrliyinin davamlı inkişaf və qərar qəbuletmədə qadınların səslərini fəal şəkildə dəstəklədiyini görmək çox xoşdur. “AQEM Qadınlar Şurasının yaradılması vacib bir təşəbbüsdür”, - deyən Leyla Əliyeva konstruktiv ideyaları əməllərə çevirməkdə bu platformaya uğurlar arzulayıb.








AQEM-in Baş katibi Kayrat Sarıbay isə beynəlxalq və regional təşkilatların qadınların səlahiyyətlərinin artırılması istiqamətindəki qlobal səylərdə mühüm tərəfdaşlar olduqlarını deyib. Baş katib diqqətə çatdırıb ki, onlar bu prosesdən kənarda qala bilməzlər. AQEM də daxil olmaqla, çoxtərəfli platformalar normaların formalaşmasına kömək edir, dialoqu asanlaşdırır və üzv dövlətlər arasında ən yaxşı təcrübələrin mübadiləsinə şərait yaradır.

Kayrat Sarıbay qeyd edib ki, etimadın gücləndirilməsi, iqtisadi artım və əməkdaşlığa yönələn AQEM Asiyada 28 üzv dövləti birləşdirir. Bu üzvlük dünya əhalisinin demək olar yarısını təşkil edən iqtisadi inkişaf, demoqrafik meyillər, mədəni dinamika və sosial strukturlar baxımından böyük bir müxtəlifliyi təmsil edir. Son onilliklər ərzində Asiyada nəzərəçarpacaq irəliləyişlər olsa da, siyasətdə, iqtisadi liderlikdə, sülh quruculuğunda və ya iqlim dəyişikliyi müzakirələrində, eləcə də bir çox qərar qəbuletmə sahələrində qadınların səsi hələ də daha az eşidilir. Bu da bugünkü konfransımızın mövzusunu daha da aktual edir.

Konfransda, eyni zamanda, “UN Women” təşkilatının İcraçı direktoru Sima Sami Bahousun videomüraciəti təqdim edilib. Sima Sami Bahous diqqətə çatdırıb ki, AQEM Qadınlar Şurasının yaradılması yüksək qiymətləndirilməlidir. Bu mühüm təşəbbüs qadınların dayanıqlı inkişafın mərkəzində yer almaları istiqamətində atılan əhəmiyyətli addımdır. O, bu platformanın qadınların səsinin daha aydın eşidilməsinə, onların qərarvermə proseslərində iştirakının genişlənməsinə və regional əməkdaşlığın güclənməsinə töhfə verəcəyinə inandığını vurğulayıb.

Qeyd edək ki, konfrans çərçivəsində “Kiçik və orta biznesdə qadın sahibkarlığı: Süni intellekt və rəqəmsallaşmanın imkanları” və “Ətraf mühitin qorunması və dayanıqlılığın gücləndirilməsində qadın liderliyi” mövzuları müzakirə olunub.

# Yeni Azərbaycan Partiyasının üzvləri üçün Çin dili kursunun açılış mərasimi keçirilib

Aprelin 14-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin birgə təşəbbüsü ilə partiya üzvləri üçün Çin dili kursunun açılış mərasimi keçirilib.

Tədbirdə Çin səfirliyinin nümayəndələri, Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun təmsilçiləri, partiyanın Gənclər Birliyinin üzvləri, Mərkəzi Aparatın və yerli təşkilatların əməkdaşları iştirak ediblər.

Tədbirdən öncə YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lu Mey arasında görüş keçirilib. Səfir Lu Mey regionda yaranmış hərbi münaqişə fonunda Çin vətəndaşlarının İrandan təxliyəsində göstərilmiş yüksək dəstəyə görə Azərbaycan tərəfinə, şəxsən Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib, bunu ölkələrimiz arasında dostluq münasibətlərinin növbəti təzahürü kimi qiymətləndirib. Görüşdə YAP ilə Çin Kommunist Partiyası arasında imzalanan Əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin uğurla icra edildiyi bildirilib, nəzərdə tutulan tədbirlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.












Sonra Çin mədəniyyətinin ayrılmaz hissəsi olan qədim çay ənənəsi və xəttatlıq sənəti nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Çin dili kurslarının Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin mahiyyətinə uyğun olaraq təşkil edildiyini diqqətə çatdırıb.

YAP Sədrinin müavini qeyd edib ki, müasir beynəlxalq münasibətlər sistemində müstəqil, konstruktiv və prinsipial siyasəti ilə seçilən Azərbaycan ilə Çin arasında əməkdaşlıq qarşılıqlı etimada əsaslanır və dövlət başçılarının siyasi iradəsi sayəsində ildən-ilə daha da möhkəmlənir. Onun sözlərinə görə, qlobal xarakterli yeni təhlükəsizlik çağırışlarının meydana çıxdığı və geosiyasi transformasiyaların baş verdiyi bir dövrdə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin davamlı inkişafı milli maraqların təmini baxımından müstəsna önəm daşıyır: “Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin 2025-ci ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində imzalanmış “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat”dan irəli gələrək çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi istiqamətində ardıcıl fəaliyyət həyata keçirilir. Bu xüsusda elm, təhsil, humanitar və mədəni sahələrdə gerçəkləşdirilən təşəbbüslər fəal siyasi dialoq şəraitində xalqlarımız arasında qarşılıqlı anlaşmaya əsaslanan dostluğun daha da möhkəmlənməsinə xidmət edir. Bu prosesdə dövlətlərarası münasibətlərin önəmli tərkib hissəsi kimi iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının əməkdaşlıq əlaqələrinin mühüm rolu vardır”.

Tahir Budaqov bildirib ki, 2024-cü ilin noyabrın 13-də partiyalarımız arasında imzalanmış Əməkdaşlıq memorandumundan irəli gələrək məqsədyönlü tədbirlər uğurla davam etdirilir: “Yeni Azərbaycan Partiyasının üzvləri üçün Çin dili kursunun təşkili də mədəni-humanitar əlaqələrin gücləndirilməsi və dostluq körpülərinin genişləndirilməsi istiqamətində atılan növbəti mühüm addımdır. Bu, partiya fəallarının kommunikasiya imkanlarının artırılması, qarşılıqlı fikir və təcrübə mübadiləsinin intensivləşməsi xüsusunda olduqca önəmlidir”.

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, süni intellekt texnologiyalarının sürətli inkişafı, rəqəmsallaşmanın həyatın, demək olar ki, bütün sahələrinə nüfuz etməsi qlobal miqyasda yeni çağırışlar meydana çıxarıb: “Bu kontekstdə texnoloji tərəqqinin aparıcı mərkəzlərindən olan Çin Xalq Respublikasının dünya iqtisadiyyatında və sivilizasiyalararası dialoq prosesində güclənən mövqeyi Çin dilinin beynəlxalq ünsiyyət vasitəsi kimi əhəmiyyətini daha da artırır. Ona görə də bu dilin öyrənilməsi qlobal iqtisadi proseslərə daha yaxından inteqrasiya olunmağa, biznes əlaqələri, investisiya mühiti və texnoloji tərəfdaşlıq sahələrində layihələrin səmərəli icrasına əlverişli zəmin yaradır. Xüsusilə, gənc nəslin, o cümlədən partiya fəallarının bu istiqamətdə biliklərinin artırılması onların beynəlxalq platformalarda aktiv təmsil olunmasına, müasir çağırışlara adekvat olaraq ölkəmizin maraqlarını effektiv şəkildə müdafiə etməsinə xidmət göstərir. Fürsətdən istifadə edərək, bu təşəbbüsün həyata keçirilməsinə verdiyi dəstəyə görə Çin Xalq Respublikasının ölkəmizdəki Səfirliyinə, şəxsən səfir Lu Meyə təşəkkürümü bildirir və bütün iştirakçılara uğurlar arzulayıram. Əminəm ki, gələcəyə hesablanmış bu önəmli təşəbbüs əməkdaşlıq imkanlarını genişləndirməklə bir çox müştərək hədəflərin reallaşmasına təkan verəcək, partiyalar və ölkələrarası münasibətlərin davamlı inkişafına xidmət göstərəcəkdir”.

Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey iki ölkənin liderləri tərəfindən həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Çin-Azərbaycan münasibətlərinin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib. O bildirib ki, Çin Kommunist Partiyası və Yeni Azərbaycan Partiyası əldə olunmuş razılaşmalara uyğun qarşılıqlı fəaliyyəti uğurla davam etdirirlər: “Partiya və dövlət idarəçiliyi sahəsində fəal təcrübə mübadiləsi aparılır ki, bu da ikitərəfli əməkdaşlığın müxtəlif sahələrdə inkişafına mühüm töhfə verir”.

Azərbaycanda Çin dilinə marağın artdığını söyləyən səfir bildirib: “Mən Çin dilini sərbəst bilən bir çox azərbaycanlı dostlarla görüşmüşəm. Bir çox gənc Çin mahnılarını böyük ustalıqla ifa edir və ənənəvi Çin incəsənətini mənimsəyir. Eyni zamanda, Çinin universitetləri və analitik mərkəzləri də Azərbaycanla bağlı tədqiqatları fəal şəkildə davam etdirirlər. 2025-ci ildə 60 mindən çox Çin vətəndaşı Azərbaycana səfər etmişdir. Bu faktlar iki xalq arasında dostluğun və sivilizasiyalararası dialoqun inkişafına sadiqliyin bariz nümunəsidir. Ümid edirik ki, Çin dilini öyrənən partiya üzvləri nəsillər arasında dostluğun möhkəmlənməsinə və ikitərəfli əməkdaşlığın bütün sahələrdə inkişafına töhfələr verəcəklər. Çinin Azərbaycandakı Səfirliyi bundan sonra da bütün zəruri şəraiti yaratmağa davam edəcəkdir”.

Səfir Yeni Azərbaycan Partiyasının üzvləri üçün təşkil olunan kursun Çini daha yaxından tanımaq imkanı yaradacağını əlavə edib.

Daha sonra Konfutsi İnstitutunun tələbələri tərəfindən Çin milli rəqsi və ifalar təqdim olunub.

Tədbirdən sonra Çin dili kursunun ilk dərsi keçirilib.

# Qeyri-neftə əsaslanan inkişaf göstəriciləri

2026-cı ilin yanvar-mart aylarında ölkəmizdə 29 milyard 703,2 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,2 faiz azalsa da, qeyri neft-qaz sektorunda 0,2 faiz artıb. ÜDM istehsalının 33,5 faizi sənaye, 11,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,6 faizi tikinti, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2 faizi informasiya və rabitə sahələrinin, 23,3 faizi digər xidmət sahələrinin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 11,7 faizini təşkil edib.

| Göstəricinin adı | 2026-cı ilin yanvar-mart ayları | 2026-cı ilin yanvar-mart ayları 2025-ci ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| Sənaye məhsulu istehsalı, milyon manat | 14870,6 | +0,2% |
| o cümlədən: neft-qaz sektoru | 9726,4 | -1,0% |
| qeyri neft-qaz sektoru | 5144,2 | +7,2% |

Birinci rübdə informasiya və rabitə sahələrində əlavə dəyər real ifadədə 9,2 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində 3,7 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 2,9 faiz, nəqliyyat və anbar təsərrüfatı sahələrində 1,5 faiz, digər xidmət sahələrində 0,3 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 1,2 faiz, sənayedə 0,2 faiz artıb.

**Qeyri-neft sənayesində əlavə dəyər artıb**

ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Belə ki, əlavə dəyərin təxminən 70 faizi qeyri-neft mənbələrinin üzərində cəmləşib ki, bu da nominal ifadədə 20 milyard manata yaxın milli məhsul deməkdir. ÜDM-də əsas əlavə dəyər yaradan sahələrdən biri olan sənaye sektorunda 14,9 milyard manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,2 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin emal bölməsində daha çox artım avtomobil, qoşqu və yarımqoşquların istehsalı, əczaçılıq məhsullarının istehsalı, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri, elektrik avadanlıqlarının istehsalı, toxuculuq sənayesində yüksək istehsal qeydə alınıb.

Sənayenin qeyri-neft bölmələrində əlavə dəyər təqribən 4 faizə yaxın artıb. Bu amil də sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir. Xüsusilə də ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərin artmasında sənaye parklarının rolunun artması ümumi qeyri-neft sənayesinin dinamikasını artırır. Həmçinin, Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye vektorlarının, xüsusilə də Ağdam Sənaye Parkındakı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin “Araz Vadisi İqtisadi Zonası”nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir. Qeyri-neft sənayesinin inkişafı ümumilikdə, neftdənkənar mənbələrin hazırda həm də əsas əlavə dəyər formalaşdıran fiskal sahə olduğunu göstərir.

**4 milyard manatdan çox investisiya yönəldilib**

Cari ilin ilk rübündə sərmayə axıcılığı da dayanıqlı xarakter daşıyıb, əsas kapitala 4 milyard 049,8 milyon manat investisiya yönəldilib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 14,9 faiz çoxdur. Bu dövrdə neft-qaz sektoruna qoyulan sərmayələr 51,4 faiz artıb, eyni zamanda, qeyri-neft sektorunda da aktivlik müşahidə olunub. Qeyri neft-qaz sektoruna investisiya qoyuluşu isə 2025-ci ilin yanvar-mart ayları ilə nisbətdə 2,2 faiz artaraq 2 milyard 523,9 milyon manata çatıb. Sektorlar üzrə sənaye, logistika, kənd təsərrüfatı və texnologiya sahələrinə kapital qoyuluşlarında artım baş verib. Əsas kapitala yönəldilmiş investisiyaların 70 faizindəm çoxunu daxili investisiyalar təşkil edib. Xarici investisiyaların həcmi 1 milyard manata bərabər olub.

Yeri gəlmişkən, İqtisadiyyat və Sülh İnstitutu (İEP) tərəfindən açıqlanan “Global Terrorism Index 2026” hesabatına əsasən, Azərbaycan investisiya cəlbediciliyi baxımından dünyanın ən təhlükəsiz ölkələrindən biri kimi mövqeyini daha da möhkəmləndirib. Bu indeks Azərbaycanın sülhpərvər, stabil və tolerant ölkə və xarici investorlar, eləcə də beynəlxalq maliyyə təşkilatları üçün etibarlı istinad mənbəyi olduğunu təsdiqləyir.

**Əhalinin gəlirləri və orta aylıq əməkhaqqı artıb**

2026-cı il martın 1-i vəziyyətinə ölkədə muzdla çalışan işçilərin sayı 1 milyard 784 min nəfər olub, onlardan 870,6 min nəfəri dövlət sektorunda, 913,4 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla çalışan işçilərin 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,3 faizi təhsil, 13,8 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi tikinti, 6,1 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,0 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi maliyyə və sığorta fəaliyyəti, 2,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 15,1 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olur. Muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,3 faiz artaraq 1099,1 manat təşkil edib.

Cari ilin ilk rübündə əhalinin nominal gəlirləri 22 milyard 359,1 milyon manat təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 7 faiz çoxdur. Hesabat tarixində ölkə üzrə istehlak qiymətləri indeksi 5,7 faiz təşkil edib. İnflyasiya səbətində qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,8 faiz, qeyri-qida məhsulları üzrə 3,6 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 faiz artım qeydə alınıb.

İstehlak qiymətləri indeksi, faizlə

| | 2026-cı ilin mart ayı: əvvəlki aya nisbətən | 2026-cı ilin mart ayı: əvvəlki ilin müvafiq ayına nisbətən | 2026-cı ilin yanvar-mart ayları 2025-ci ilin yanvar-mart aylarına nisbətən |
|---|---|---|---|
| **Cəmi məhsullar və xidmətlər** | **100.5** | **105.6** | **105.7** |
| qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları | 101,0 | 106,5 | 106,8 |
| qida məhsulları | 101,0 | 106,4 | 106,6 |
| alkoqollu içkilər | 100,5 | 108,0 | 107,7 |
| tütün məmulatları | 100,0 | 109,5 | 111,1 |
| qeyri-qida məhsulları | 100,2 | 103,7 | 103,6 |
| ödənişli xidmətlər | 100,2 | 105,7 | 105,7 |

Ümumilikdə, birinci rübdə əhalinin gəlirləri inflyasiyanı üstələməklə insanların sosial rifahında əhəmiyyətli rol oynayıb.

**Qeyri-neft sektorunun ÜDM-də payı 80 faizə yaxınlaşır**

Cari ilin birinci rübünün makroiqtisadi göstəriciləri onu təsdiqləyir ki, ölkə iqtisadiyyatının inkişafında ağırlıq mərkəzi tamamilə qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır və hökumətin neft ÜDM-dən qeyri-neft ÜDM-ə keçid strategiyası özünü doğrultmaqdadır. Hökumətin yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq.

Ortamüddətli Xərclər Çərçivəsi sənədində və İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş proqnoz icmalına əsasən, 2026-cı ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcək. Ortamüddətli dövr üçün makroiqtisadi proqnozlara görə, 2026-cı ilin sonuna ÜDM-in həcmi 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcmi 101,7 milyard manat təşkil edəcəyi, 2029-cu ildə isə ÜDM-in 161,8 milyard manata qədər, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcminin 129,5 milyard manata qədər artacağı gözlənilir. Ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,5 faiz, qeyri-neft-qaz ÜDM-nin 4,9 faiz olacağı fərz edilir.

Hökumətin nikbin makroiqtisadi ssenarisinə əsasən, ölkəmizin qarşıdakı 4 il ərzində iqtisadi inkişafının əsas drayverləri qeyri-neft sektoru üzrə yığım mənbələrinin təşviqi, “kölgə iqtisadiyyatı”nın səviyyəsinin azaldılması, habelə iqtisadiyyatın özəl və dövlət sektorunda qeyri-rəsmi məşğulluğun qarşısının alınması və gəlirlərin leqallaşdırılması nəticəsində qeyri-neft yığım mənbələri genişlənəcək. Nəticədə 2029-cu ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payı daha da artaraq 80 faizə çatacaq.

*E.CƏFƏRLİ*

# Bank və maliyyə sektorunda sabitlik təmin olunub

## Mərkəzi Bank “Maliyyə Sabitliyi Hesabatı”nı təqdim edib

Mərkəzi Bank (MB) 2025-ci ilə dair “Maliyyə Sabitliyi Hesabatı”nı ictimaiyyətə təqdim edib. Sənəddə bildirilir ki, ötən il maliyyə sabitliyi siyasətinin əsas prioritetlərini maliyyə-bank sisteminə etimadın qorunması, risklərin minimallaşdırılması, maliyyə sektorunda idarəetmə potensialının və şoklara qarşı dayanıqlığın artırılmasına yönəlib. İl ərzində risk əsaslı nəzarət mexanizmlərinin tətbiqi istiqamətində işlərin görülməsi, risklərin həssas sahələrini əhatə edən prudensial tələblərin gücləndirilməsi, həmçinin sektorla effektiv dialoq və tənzimləmə-nəzarət çərçivəsinin modernləşdirilməsi maliyyə sabitliyinin təmin olunmasında mü-




hüm rol oynayıb. İl ərzində bank sektorunun maliyyə vasitəçiliyi funksiyası genişlənib, kreditləşmə fəaliyyəti ilə sektorun balansının genişlənməsi davam edib. Kredit portfelinin artım dinamikası fonunda tənzimləmə çərçivəsinin təkmilləşdirilməsi və kredit təşkilatları tərəfindən risklərin effektiv idarə edilməsi təmin olunub.




**Bankların aktivləri 57 milyard manatı ötüb**

Bank sektorunun balansı genişlənməkdə davam edir. 2025-ci il ərzində bank sektorunun cəmi aktivləri 7,7 faiz (4,1 milyard manat) artaraq 57,1 milyard manata çatıb. Bankların toplam öhdəlikləri isə 7,2 faiz (3,3 milyard manat) artaraq 49,7 milyard manat təşkil edib. Bu, onu göstərir ki, bank sektorunun 8 milyard manata yaxın xalis gəliri var. Eyni zamanda, bankların aktivlərinin ÜDM-ə nisbəti ötən ilin sonu ilə müqayisədə 2,3 faiz-bəns artmaqla 44,2 faizə çatıb. Bank sektorunda balansın artımı əsasən fiziki şəxslərin müddətli depozitləri hesabına baş verib ki, bu da kredit portfelinin artımını dəstəkləyib. Bankların aktivlərinin 49,6 faizini xalis kredit portfeli, 22,6 faizini cari aktivlər, 27,8 faizni isə digər aktivlər təşkil edir. Bankların öhdəliklərinin isə 44 faizini hüquqi şəxslərin depozitləri, 33 faizi fiziki şəxslərin əmanətləri, 13 faizi isə bank və digər maliyyə institutlarının depozit və kreditləri, 10 faizi digər öhdəliklərdən ibarətdir.

Ötən il bank sisteminin kapital adekvatlığı və likvidlik göstəriciləri minimum tələbləri əhəmiyyətli üstələyib. Bank sektorunda kapital adekvatlığı əmsalı 17,6 faiz olmaqla minimum tələbi 1,7 dəfəyədək üstələyib. Bank sektorunun məcmu likvidliyin örtülmə əmsalı (154 faiz) minimum tələbdən 1,5 dəfə çox olub. Sektorun gəlirliliyində də müsbət meyil davam edib və il ərzində 1,2 mlrd. manata yaxın xalis mənfəət əldə olunub. 2025-ci ildə bank sektoru üzrə aktivlərin gəlirliliyi 2,1 faiz, kapitalın gəlirliliyi isə 18,2 faiz təşkil edib.

**Fiziki şəxslər banklara daha çox əmanət yerləşdirib**

Maraqlı məqamlardan biri banklarda əmanətlərin strukturu ilə bağlıdır. Belə ki, sektorun əsas maliyyələşmə mənbəyi olan hüquqi şəxslərin depozitlərində azalma olsa da, fiziki şəxslərin depozitlərində olan artım bu azalmanı kompensasiya edib. Hüquqi şəxslərin depozitləri 6,4 faiz və ya 1,5 milyard manat azalıb. Fiziki şəxslərin depozitləri isə 14,2 faiz və ya 2 milyard manat artıb. Fiziki şəxslər üzrə depozitlərin artımı müddətli depozitlərin artımı hesabına olsa da, hüquqi şəxslər üzrə depozitlərin azalması həm müddətli, həm də tələbli depozitlərin azalması hesabına baş verib. Bu, onu göstərir ki, sadə vətəndaşların əmanətləri artır, vəzifəli və hüquqi şəxslər isə əllərindəki pul vəsaitlərini başqa sahələrə yönəldir.

Ümumiyyətlə, Azərbaycan bank sektorunda müşahidə olunan son dinamika fiziki şəxslərin depozitlərinin bank sektorunun maliyyələşməsində rolunun artdığını göstərir. 2024-cü ilin sonu ilə müqayisədə müddətli depozitlərə malik unikal fiziki şəxslərin sayı 29 faiz artaraq 194 minə çatıb. Bu tendensiya sayəsində 2025-ci ildə fiziki şəxslərin depozitləri 2 milyard manat artıb və artımın 1,7 milyard manatı müddətli, 0,3 milyard manatı isə tələbli depozitlərin payına düşüb. Fiziki şəxslərin müddətli depozitləri illik müqayisədə 20 faiz, bank sektorunun müddətli depozitlərində payı isə 6 faiz-bənd artaraq 66 faizini təşkil edib. Nəticə etibarilə, fiziki şəxslərin müddətli depozitlərinin artan payı bank sektorunda stabil maliyyələşmə bazasını genişləndirir, və ümumi maliyyə sabitliyinin möhkəmlənməsinə mühüm töhfə verir.

**Qeyri-işlək kredit portfeli niyə artır?**

Ümumilikdə, 2025-ci il ərzində depozit portfeli və kredit portfelinin artım dinamikası fonunda kreditin depozitə nisbəti göstəricisi 6 faiz-bənd artaraq 79 faizə bərabər olub. Həmçinin, kredit bazarında da müxtəlif istiqamətlər üzrə dəyişikliklər müşahidə olunub. Kredit portfelinin illik artım tempi nominal qeyri-neft ÜDM-in artım tempini üstələməkdə davam etməkdədir. 2025-ci ildə bank sektorunun kredit portfeli 9,4 faiz artaraq 30,1 milyard manata çatıb. Kredit portfelinin artımı həm biznes, həm istehlak, həm də ipoteka portfeli üzrə baş verib. İl ərzində biznes kreditləri 8,9 faiz və ya 1,3 milyard manat artaraq 16,1 milyard manata, istehlak kreditləri 10,8 faiz və ya 909 milyon manat artaraq 9,4 milyard manata, ipoteka portfeli isə 8,4 faiz və 356 milyon manat artaraq 4,6 milyard manata yüksəlib.

Bu fraqmentasiyalar fonunda bank sistemi üzrə kredit riskləri stabil olaraq qalmaqda davam edib. 2025-ci il ərzində qeyri-işlək portfelin həcmi 16,4 faiz və ya 107 milyon manat artaraq 763 milyon manata çatıb. Qeyri-işlək portfellər üzrə istehlak kreditlərində 58 milyon manat, biznes kreditlərində 54 milyon manat artım, ipoteka kreditlərində isə 5 milyon manat azalma baş verib. Nəticədə, qeyri-işlək portfelin cəmi kredit portfelində payı 0,1 faiz-bənd artaraq 2,5 faiz təşkil edib. Bu o deməkdir ki, kreditlərin qaytarılmasında da ötən il də ciddi problemlər yaranıb. Məlumat üçün xatırladaq ki, qeyri-işlək portfel və ya qeyri-işlək kreditlər borcalanlar tərəfindən ödənişləri adətən 90 gündən çox gecikdirilən, faiz və ya əsas borc üzrə öhdəliklərin yerinə yetirilmədiyi bank kreditlərinin məcmusudur. Bu aktivlər bank üçün yüksək risk yaradır və gəlir gətirməyən, problemli kreditlər hesab olunur və bankların maliyyə dayanıqlılığına mənfi təsir göstərir, kapital mövqeyini zəiflədir.

**“Ümidsiz kredit” manipulyasiyası qeyri-işlək kreditlərin həcmini yüksəldir**

Mövcud vəziyyət onu göstərir ki, qeyri-işlək kreditlərin həcmi və onların ümumi portfeldəki payı bank sisteminin sağlamlığını göstərən əsas indikatorlardan biri kimi qalır. Doğrudur, qeyri-işlək kreditlərin bir hissəsi zəmanət mexanizmi vasitəsilə qismən təminat altına alınır, ancaq həmin vəsaitlərin geri qaytarılmasındakı səhlənkarlıq nəticəsində bank kapitalının likvidliyi də aşağı düşür. Bu risklər nəzərə alınaraq ötən il bank sektorunda 223 milyon manat qeyri-işlək kreditin silinməsi baş verib. Silinmələrin 60,9 faizi (135,8 milyon manat) istehlak portfeli üzrə, 37,8 faizi (84,2 milyon manat) isə biznes portfeli üzrə olub.

Bank sistemində və beynəlxalq praktikada ümidsiz borcların silinməsi mövcuddur. Əgər kreditin girovu, zəmanətçisi və ya varisi yoxdursa, həmçinin borc sığortalanmayıbsa, müəyyən müddətdən sonra bu borc “ümidsiz aktiv” kimi qəbul edilərək bank tərəfindən silinir. Çünki bu cür borcların aktivlərdə saxlanması bank üçün heç bir iqtisadi fayda daşımır. Ancaq bu, məqsədli xarakter daşıyırsa, müsbət hesab edilmir. Borcalanların, xüsusilə də, bəzi sahibkar və hüquqi şəxslərin bu cür “məsuliyyətsizliyi” növbəti dövrlərdə kütləvi şəkildə öhdəliklərin icra edilməsində intizamsızlığa səbəb ola bilər. Çünki kreditlərin kütləvi şəkildə silinməsi maliyyə sistemini ciddi şəkildə sarsıda bilər. Doğrudur, kredit risklərini tam qarşılaya bilmək üçün bank sektorunun yetəri qədər ehtiyatlanması mövcuddur. Bank sektorunda kreditlər üzrə mümkün zərərlərin ödənilməsi üçün yaradılmış məqsədli ehtiyatların məbləği 1,75 milyard manat təşkil edir ki, bu da qeyri-işlək portfelin həcmindən 230 faiz çoxdur. Ancaq, bu, heç bir halda kreditləri qaytarmamağa adət etmiş “sahibkar”ların “ümidsiz kredit” adı altında maliyyə sektoruna zərər vurmasına haqq vermir. Xüsusilə də, qeyri-işlək portfelin artımında əsasən ticarət sektorunun payının artması ciddi siqnallar verməlidir. 220 milyon manatdan artıq vəsaitin fəal iqtisadi proseslərə inteqrasiyası kifayət qədər müsbət dinamika yarada bilər, kiçik və orta biznes üçün dayanıqlı kreditləşmə mənbəyi ola bilərdi.

Mərkəzi Bank mövcud vəziyyətə nəzarəti artıracağını istisna etmir. Belə ki, bank sektorunda kapitalın keyfiyyət və kəmiyyət baxımından gücləndirilməsi, eləcə də sistem risklərinə qarşı dayanıqlığın artırılması məqsədilə Bank nəzarəti üzrə Bazel Komitəsi tərəfindən Bazel III standartları hazırlanıb və mərhələli şəkildə tətbiq olunmasına başlanılıb.

**İstehlak kreditlərinə kütləvi meyl əhalinin borc yükünü artırıb**




Digər məqamlardan biri ötən ilin sonunda əhalinin borc yükünün artmasıdır. Belə ki, əhalinin sərəncamda qalan gəlirlərində müsbət artım dinamikası müşahidə edilməsinə baxmayaraq, borc yükünün sərəncamda qalan gəlirlərdəki payı artmaqdadır. Belə ki, əhalinin borc yükünün sərəncamda qalan

| | 2023 | 2024 | 2025 |
|---|---|---|---|
| Balans göstəriciləri | | | |
| **Cəmi aktivlər** | **49,178** | **53,001** | **57,086** |
| Kredit portfeli | 23,183 | 27,478 | 30,063 |
| Biznes kreditləri | 12,617 | 14,787 | 16,106 |
| İstehlak kreditləri | 6,937 | 8,445 | 9,354 |
| İpoteka kreditləri | 3,629 | 4,246 | 4,603 |
| **Cəmi öhdəliklər** | **43,115** | **46,383** | **49,744** |

gəlirlərinə nisbəti ötən ilin sonu ilə müqayisədə 0,4 faiz-bənd artaraq 18,4 faiz olub.

**Sual oluna bilər ki, əhalinin borc yükü niyə artır?**

Cavab sadədir, Azərbaycanda əhalinin orta borc yükündə artım maliyyə-kredit təşkilatlarından ilbəil daha çox vəsait cəlb etməsi ilə bağlıdır. Burda kreditlərlə yanaşı, müxtəlif kredit kartlarının say və həcminin artması da əsas rol oynayır. Hazırkı rəqəmlərin təhlili isə onu göstərir ki, əhalinin orta borc yükünün artması istehlak kreditlərinin verilməsinə yüksək meyillərdən qaynaqlanır. Vətəndaşlar müxtəlif daşınar əmlak və ya aktivlər üçün istehlak kreditlərini artırır ki, bu da onların borc yükünün göstəricisini yüksəldir. Bu, təhlükəli tendensiya hesab edilə bilməz, çünki insanlar öz borclarını geriödəmə imkanlarına və maliyyə dayanıqlılığına güvənərək borclanırlar. Ancaq, buna baxmayaraq, bu sahə ciddi şəkildə nəzarətə götürülməlidir, çünki kütləvi şəkildə istehlak kreditləşməsinə meyl mənfi fəsadlar da yarada bilər. Ona görə də, ən yaxşı hal insanları istehlak yox, biznes kreditlərinə təşviq etməkdir.

**Bank olmayan kredit təşkilatlarının rolu hələ də zəifdir**

Bank sektorunda güclü dayanıqlılıq arxitekturasının müqabilində bank olmayan kredit təşkilatlarının (BOKT) maliyyə vasitəçiliyində rolu kiçik olaraq qalmaqdadır. 2025-ci ilin sonuna olan məlumatlara əsasən, Azərbaycanda fəaliyyət göstərən BOKT-ların sayı 54, kredit ittifaqlarının (Kİ) sayı isə 35 olmaqla, ümumilikdə qeyri-bank kredit təşkilatlarının sayı 89 olub. Bütövlükdə maliyyə sistemində aktivlərinə görə BOKT-ların bazar payı 2,1 faiz təşkil edib. 4 İl ərzində 4 BOKT və 1 Kİ-nin lisenziyası ləğv edilib, 1 BOKT-yə isə yeni lisenziya verilib. Hazırda, fəaliyyətdə olan BOKT-ların 14-ü xarici kapitallıdır ki, onlardan 11-də xarici kapitalın payı 50 faizdən yüksəkdir. İl ərzində bu təşkilatların filiallarının sayı isə 7 ədəd azalaraq 297 olub. Ancaq buna baxmayaraq, 2025-ci ildə BOKT sektorunun aktivlərinin həcmi artaraq (250 milyon manat) 1,24 milyard manata yüksəlib.

BOKT-larda maliyyə imkanlarının artımında əsas payçı xalis kredit portfeli olub. Belə ki, il ərzində xalis kredit portfeli 28,8 faiz (206 mln. manat) yüksəlib, cəmi öhdəlikləri isə il ərzində 26,5 faiz (142,4 milyon manat) artaraq 679 milyon manat təşkil edib Rezident maliyyə institutlarından cəlb edilmiş vəsaitlər ümumi öhdəliklərin artmasına əsas təsir edən amillərdən biri olub. 2025-ci ildə istehlak kreditləri BOKT-ların kredit portfelində əsas yeri tutmaqda davam edib, cəmi kredit portfeli 29,5 faiz (238,7 milyon manat) artaraq 1,05 milyard manat olub.

**Sığorta yığımları 1,5 milyard manata çatıb**

Ötən il sığorta sektoru da özünün artım potensialını reallaşdırmaqda davam edib. Azərbaycan sığorta bazarında 16 sığorta və 1 təkrarsığorta şirkəti fəaliyyət göstərir. Sığorta şirkətlərindən 5-i həyat, 11-i isə qeyri-həyat sığorta şirkətidir. Sığorta sektorunun fəaliyyəti həmçinin 22 sığorta brokeri və 468 sığorta agenti vasitəsilə təmin edilib. 2025-ci ildə sığorta haqları əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz artaraq 1,5 milyard manat, sığorta ödənişləri isə 22 faiz artaraq 920 milyon manat təşkil edib. Sığorta haqların 56,7 faizi həyat sığortası üzrə sahələrdən, 43,3 faizi isə qeyri-həyat sığorta bazarından formalaşıb.

Sektor yüksək gəlirlə fəaliyyət göstərib və 166 milyon manat xalis mənfəət qazanıb. Sığorta sektoru üzrə kapitalın gəlirliliyi isə 28 faiz olmaqla, sektorun məcmu kapitalı tələb olunan kapitalı 1,9 dəfəyə qədər üstələyib.

Ötən il, həmçinin, investisiya şirkətlərinin maliyyə sistemində payı kiçik olsa da, artım üçün potensialı böyükdür. Kapital bazarında qiymətli kağızlar dövriyyəsi artım tendensiyasını qoruyub saxlayıb. Kapital bazarı infrastrukturunun təkmilləşdirilməsi, istiqamətində tədbirlər davam etdirilib.

*E.CƏFƏRLİ*

# Hörmüz boğazında qarşıdurma güclənir

## ABŞ blokada elan edir, İran cavab veriləcəyin deyir, Çin isə...

Bazar ertəsi günü Vaşinqton vaxtı ilə saat 10:00-da ABŞ prezidenti Donald Trampın dəniz blokadası tətbiq etmək üçün təyin etdiyi son tarix başa çatdı. Xatırladaq ki, Donald Tramp İslamabadda danışıqların uğursuzluğundan sonra ABŞ-ın Hörmüz boğazını blokadaya aldığını elan etmişdi: "Bu andan etibarən dünyanın ən yaxşısı olan ABŞ Hərbi Dəniz Qüvvələri Hörmüz boğazına girməyə və ya çıxmağa çalışan istənilən gəminin BLOKADA prosesinə başlayacaq".

Bölgədəki ABŞ hərbi komandanlığı isə gəmilərin Hörmüz boğazından digər ölkələrə və ya digər ölkələrdən keçməsinə mane olmayacaqlarını açıqlayıblar. Bütün bu vədlərə baxmayaraq neftin qiyməti yenidən barel üçün 100 dollardan yuxarı qalxıb. Blokadanın rəsmi başlanğıcından sonrakı ilk dəqiqələrdə heç bir ticarət gəmisinin saxlanılması barədə məlumat verilməyib. Dubay ofisi vasitəsilə Fars körfəzi bölgəsində hərbi gəmilərin və ticarət gəmilərinin qarşılıqlı fəaliyyətini əlaqələndirən Böyük Britaniya Dəniz Ticarət Əməliyyatları Mərkəzi (UKMTO) mülki gəmilər üçün təlimat yayımlayıb və blokadanın həm körfəz daxilində, həm də xaricində bütün İran sahil xəttinə şamil edildiyini bildirib. Bu arada AVBŞ Hərbi Dəniz Qüvvələrinin məxsus USS Abraham Lincoln təyyarədaşıyan gəmisi Oman körfəzinə daxil olub və İran sahillərindən 200 kilometr cənubda yerləşib. Məlumatı BBC peyk məlumatlarına istinadən yayıb. BBC-nin məlumatına görə, bu, Amerika gəmisinin İranda ABŞ hərbi əməliyyatının başlamasından bəri Fars körfəzinə bu qədər yaxınlaşması ilə bağlı ilk haldır. BBC həmçinin qeyd edib ki, gəminin zərbə qrupuna iki idarə olunan raket esminesi daxil olub.

**Tehran icazə verməyəcək...**

İran isə bu blokadanı tənqid edib - Tehran ABŞ-ın Hörmüz boğazını blokadaya almasının uğursuzluğa məhkum olduğunu bildirib. İranın ali liderinin baş hərbi müşaviri Möhsün Rzayinin sözlərinə görə, orduнun təhdidlərə qarşı mübarizə aparmaq üçün "əhəmiyyətli dərəcədə istifadə olunmamış imkanları" var. Rzayi bildirib ki, ABŞ-ın Hörmüz boğazını blokadaya almaq cəhdləri "uğursuzluğa məhkumdur" və Tehran belə bir addıma icazə verməyəcək. CNN-in məlumatına görə, o deyib ki, "İran tvitlər və uydurma blokada planları ilə qarşısı alına biləcək bir yer deyil".




**Gəmilər raket məsafəsindən uzaqda lövbər salıb**

ABŞ Mərkəzi Komandanlığı (Centcom) blokada ilə bağlı rəsmi açıqlama verməyib. The Guardian qəzetinin məlumatına görə, Donald Tramp bazar günü Fars körfəzinə açılan qapı olan Hörmüz boğazından 34 gəminin keçdiyini iddia edib, lakin bu iddianı dəstəkləyən heç bir dəlil yoxdur. Ağ Evdə jurnalistlərə danışan prezident həmçinin bildirib ki, "qarşı tərəfdən zəng gəldi" və o, "razılaşma əldə etməkdən çox məmnun olardı".

İran isə xəbərdarlıq edib ki, Amerika vətəndaşları Donald Trampın son addımına benzin qiymətlərinin qaldırılmasına etirazla cavab verəcəklər - həmçinin ABŞ bombardmanı davam etdirərsə, İran cavab verməyə hazır olacaq. Tramp öz növbəsində bəyan edib ki, bölgədə ABŞ donanmasına yaxınlaşan istənilən İran hücum gəmisi "dərhal məhv ediləcək".

ABŞ Hərbi Dəniz Qüvvələri Oman körfəzində, Hörmüz boğazının şərqində - daha çox İran raketləri və dronlarının məsafəsindən kənarda blokadanı gücləndirməyə çalışacağını açıqlayıb. Centcom-un blokadanı pozmağa çalışan hər hansı bir neft tankerini necə dayandıracağı isə bəlli deyil. Çünki raket zərbəsi ekoloji fəlakətə səbəb ola bilər - beləliklə, ABŞ qüvvələrinin təlimatlara tabe olmayan hər hansı bir gəmiyə nəzarəti necə ələ keçirəcəyi sullar yaradıb. Tramp bildirib ki, İranın istənilən "sürətli hücum gəmisi" ABŞ-ın blokada gəmilərinə yaxınlaşsa, ABŞ-ın Karib dənizində və Sakit okeanın şərqində təxminən 50 kiçik qayığı batırmaq üçün istifadə etdiyi məhvetmə sistemindən istifadə ediləcək.

**İran 13 milyard dollar itirir**

Bu taktika İranın neftdən asılı olan iqtisadiyyatını zəiflətmək və Tehranı ABŞ-ın Körfəz müttəfiqlərinin gəmiləri üçün Hörmüz boğazını yenidən açmaq və uranın zənginləşdirilməsinin tamamilə qadağan edilməsinə razılıq vermək tələblərini yerinə yetirməyə məcbur etmək məqsədi daşıyır. ABŞ Maliyyə Nazirliyinin keçmiş rəsmisi Miad Maleki sosial mediada iddia edib ki, ABŞ-ın dəniz blokadası İrana gündəlik təxminən 276 milyon dollar ixrac itkisinə və idxalın gündəlik 159 milyon dollar azalmasına səbəb olacaq ki, bu da ümumilikdə ayda 13 milyard dollar iqtisadi itki deməkdir.

**Tramp: 158 gəmi məhv etmişik**

Donald Tramp Amerika "blokadasına" yaxınlaşan İran gəmilərini məhv etməklə hədələyib. "İran Hərbi Dəniz Qüvvələri dənizin dibində tamamilə məhv edilib - 158 gəmi. Biz onların bir neçəsini, necə deyərlər, "sürətli hücum gəmisi" adlandırdıqları gəmiləri vurmadıq, çünki onları ciddi təhlükə hesab etmədik. Xəbərdarlıq - Əgər bu gəmilərdən hər hansı biri blokadamıza yaxınlaşarsa, dənizdəki qayıqlardakı narkotik qaçaqmalçılarına qarşı istifadə etdiyimiz eyni məhvetmə sistemindən istifadə edərək dərhal məhv ediləcək", - deyə o, "Truth Social"da yazıb.

Ağ Evdə keçirilən mətbuat konfransında isə Tramp jurnalistlərə bildirib ki, ABŞ razılaşmadan asılı olmayaraq İranın nüvə ambisiyalarını məhdudlaşdırmaq və onun parçalanan materialını ələ keçirmək niyyətindədir. Tramp bildirib ki, "Biz heç bir ölkənin dünyanı şantaj etməsinə və ya pul qoparmasına icazə verə bilmərik".

**İrandan sərt cavab**

İran Parlamentinin sədri Məhəmməd Baqır Qalibaf ölkənin "təhdidlərə təslim olmayacağını" və İranın İslam İnqilabı Keşikçiləri Korpusunun boğaza yaxınlaşan hərbi gəmilərə "ciddi şəkildə" cavab veriləcəyini bildirib.

Tehran ABŞ-ın addımını "dəniz piratçılığı" aktı adlandırıb və Fars körfəzindəki qonşu ərəb limanlarına qarşı tədbir görməklə hədələyib.

İranın xarici işlər naziri Abbas Əraqçi ABŞ prezidenti Donald Trampın son açıqlamalarına sərt və ironik reaksiya verib. İranlı diplomatın sözlərinə görə, Tramp bir tərəfdən İran donanmasının məhv edildiyini iddia edir, digər tərəfdən isə ABŞ gəmilərinə hücum ediləcəyi təqdirdə ciddi nəticələrin olacağını vurğulayır. Əraqçi bu ziddiyyətə diqqət çəkərək belə deyib: "Prezident Tramp özü özünü təkzib edir. Bir tərəfdən deyir İran donanması məhv edilib, digər tərəfdən deyir ki, bizim gəmiləri vursanız pis olacaq. Donanma yoxdursa, niyə narahatsınız? Cənab Tramp, bizə xahiş edirik dəqiq hesabat verin - donanma məhv edilib, ya yox?"

**Çin blokadanı yardı...**

ABŞ-ın sanksiya siyahısında olan Çinə məxsus "Rich Starry" tankeri dəniz blokadası başladıqdan sonra Hörmüz boğazından keçib. "CNN" telekanalı "Marine Traffic" xidmətinin məlumatlarına istinadən xəbər yayıb. Məlumata görə, gəmi metanol daşıyır və onun təyinat məntəqəsi kimi Çin göstərilib. Bildirilir ki, bu hadisə regionda dəniz nəqliyyatına tətbiq edilən məhdudiyyətlər fonunda gərginliyi daha da artıra bilər.

Qeyd edək ki, Çin körfəz bölgəsində hərbi-dəniz mövcudluğunu gücləndirəcəyini və öz ticarət gəmilərini müşayiət edəcəyini açıqlayıb. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Li Jian vurğulayıb ki, Pekin Hörmüz boğazı üzərindən daşımaları davam etdirəcək və İranla bağlanmış enerji müqavilələrini yerinə yetirməkdə qərarlıdır.

Onun sözlərinə görə, Çin donanması bölgədə fəaliyyətini genişləndirəcək və Çin bayrağı altında üzən gəmilərin təhlükəsizliyini təmin etmək üçün müşayiət tədbirləri görəcək. Rəsmi Pekin eyni zamanda, ABŞ-a xəbərdarlıq edərək bildirib ki, Çin gəmilərinə hər hansı müdaxilə qəbuledilməz hesab olunacaq.

Vurğulayaq ki, Cibutidə hərbi bazası olan Çin gəmilərini hərbi gəmilərlə müşayiət etmək qərarına gələrsə, blokadanın necə davam etdirilə biləcəyi bəlli deyil. Bu baza 1 avqust 2017-ci ildə açılıb. İran Çinin xam neft ehtiyacının 13 faizini təmin edir. Sadəcə olaraq Pekin Vaşinqtonla ticarət müharibəsi apardığı üçün Yaxın Şərq Çin üçün son illərdə xüsusilə vacib hala gəlib. Pekin ABŞ-ın onun yaxınlığında daha da möhkəmlənməsinin nəticələrini anlayır. Bütün bunlar Pekini tədbirlər görməyə sövq edə bilər. Lakin Çin uzun müddətdir ki, müdaxilə etməmək siyasətini davam etdirir və indiyə qədər İranın uzunmüddətli təhlükəsizliyinin təmin edilməsində heç bir maraq göstərməyib.

**Avstraliya şərtlərini dedi - Fransa isə konfrans keçirir**

Fransa prezidenti Emmanuel Makron Fransa və Birləşmiş Krallığın yaxın günlərdə "Boğazda naviqasiya azadlığının bərpasına" həsr olunmuş konfransa ev sahibliyi edəcəyini açıqlayıb. Sosial media paylaşımında o, konfransın "Boğazda naviqasiya azadlığının bərpasına yönəlmiş dinc çoxmillətli missiyaya" töhfə vermək istəyən ölkələrlə birgə təşkil olunacağını qeyd edib. Makron yazıb: "Müharibə edən tərəflərdən ayrı olan bu ciddi müdafiə missiyası şərait imkan verən kimi yerləşdiriləcək".

Avstraliya isə yalnız davamlı atəşkəs əldə edildiyi təqdirdə Hörmüz boğazında gəmiçiliyin təmin edilməsində iştirak edə bilər. Avstraliya Baş nazirin müavini Riçard Marles bildirib ki, hərbi əməliyyatların davamlı dayandırılması Kanberranın bölgədə naviqasiya azadlığını təmin etmək üçün hər hansı bir tədbirdə iştirakı üçün vacib şərtdir: "Avstraliya Hörmüz boğazından açıq gəmiçiliyin saxlanılmasını və sabit yanacaq tədarükünün bərpasını dəstəkləyir. Biz regional təhlükəsizliyə mümkün töhfələri müzakirə etmək üçün ABŞ, Böyük Britaniya və Fransa da daxil olmaqla müttəfiqlərlə əlaqədəyik. Konkret tədbirlər hələ müəyyən edilməyib; onlar mövcud atəşkəs çərçivəsində dəyişən vəziyyətdən və şərtlərdən asılı olacaq".

*P.İSMAYILOV*

# BMT: Yaxın Şərq münaqişəsinin hərbi həlli yoxdur

Bütün dünyanın təsirləndiyi Yaxın Şərqdəki münaqişəyə Birləşmiş Millətlər Təşkilatı (BMT) səviyyəsində növbəti dəfə münasibət bildirilib. Belə ki, BMT-nin Baş katibinin sözçüsü Stefan Düjarrik jurnalistlərə açıqlamasında bildirib ki, Yaxın Şərqdə davam edən münaqişənin hərbi həlli yoxdur.

Onun sözlərinə görə, İslamabadda ABŞ və İran arasında keçirilən danışıqlarda konkret razılaşma əldə olunmasa da, müzakirələrin baş tutması tərəflərin prosesə ciddi yanaşdığını göstərir və dialoqun bərpası istiqamətində mühüm, müsbət addım kimi qiymətləndirilə bilər.



Dağıdıcı İran-ABŞ-İsrail müharibəsi bəhs olunan dövlətlərin fərqli geostrateji maraqlarından qaynaqlanır. Müharibədən əvvəl fevral ayında Cenevrədə baş tutan danışıqlar uğursuzluqla nəticələndi. Bunun da əsas səbəbi tərəflərin maksimalist şərtlərdən çıxış etməsi ilə bağlı idi. Nəticədə ABŞ və İsrail fevralın 28-də İrana qarşı hərbi əməliyyatlara başladı. Müharibənin ilk fazasında İranın Ali rəhbəri Əli Xamenei və bir sıra yüksək vəzifəli şəxslər öldürülüb. Buna cavab olaraq İran İsraillə yanaşı, ABŞ və müttəfiqlərinin hərbi bazalarının yerləşdiyi Səudiyyə Ərəbistanı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Oman, Bəhreyn, Küveyt, İraq və Kiprdə müəyyən etdiyi hədəflərə zərbələr endirməyə başlayıb. Beləliklə də, müharibənin arealı genişlənib. İlk günlərdə ABŞ-ın qısamüddətli müharibə planından bəhs edilsə də, bu, baş vermədi. Artıq müharibə alovu böyük coğrafiyaya yayılıb. Həmçinin Livan İsrailin intensiv hücumlarına məruz qalır.

### Atəşkəs rejiminin qorunması xüsusi əhəmiyyət daşıyır

Belə kritik vəziyyətdə ABŞ və İran aprelin 8-də Pakistanın vasitəçiliyi ilə ikihəftəlik atəşkəs barədə razılığa gəliblər. ABŞ və İran arasında İslamabadda danışıqlar aprelin 11-də keçirilib. Danışıqlarda Vaşinqtonu vitse-prezident Cey Di Vensin başçılıq etdiyi, tərkibinə prezidentin xüsusi elçisi Stiv Uitkoff və sahibkar Cared Kuşnerin də daxil olduğu nümayəndə heyəti təmsil edib. İran tərəfindən isə danışıqlarda parlamentin spikeri Məhəmmədbaqer Qalibaf və XİN rəhbəri Abbas Əraqçi iştirak edirbər. Müzakirələrə həmçinin Pakistan Quru Qoşunlarının qərargah rəisi Asim Munir də qatılıb.

Gözlənildiyi kimi, 21 saat davam edən görüş tərəflərin yenə də sərt ritorikadan çıxış etmələri şəraitində keçib. Hətta müzakirələr zamanı Stiv Uitkoffla Abbas Əraqçi arasında gərgin anlar yaşanıb.

Pakistan rəhbərliyinin xoş məramı və gərgin səyləri sayəsində baş tutan görüşün nəticəsiz qalması da ilk növbədə tərəflərin müzakirələrdə maksimalist mövqedən çıxış etmələri ilə bağlıdır. Görüşdə İran və ABŞ özlərinin "qırmızı xətlərini" bir daha diqqət mərkəzinə gətiriblər. Danışıqların əsas mövzuları kimi hərbi əməliyyatların dayandırılması, təhlükəsizlik təminatı, sanksiya siyasəti və regionun strateji kommunikasiyalarına nəzarət müzakirə edilib. Tehran dondurulmuş aktivlərin açılmasını, münaqişə nəticəsində ona dəyən ziyana görə kompensasiya ödənilməsi, ABŞ bazalarının regiondan çıxarılması kimi məsələləri ön plana çəkib. ABŞ isə İranın nüvə proqramının tamamilə məhdudlaşdırılması və yaxud qarşı tərəfin bu proqramdan uzunmüddətli imtina barədə öhdəlik götürməsi kimi fundamental tələb irəli sürüb. Regionda kommunikasiyalar, xüsusilə də Hörmüz boğazına nəzarət məsələsində də tərəflər fərqli yanaşmalardan çıxış ediblər.

Artıq tarixə çevrilən İslamabad görüşü barədə tərəflər fərqli mülahizələr irəli sürürlər. ABŞ-ın vitse-prezidenti Cey Di Vens mətbuat konfransında bildirib: "Pis xəbər odur ki, razılaşmaya nail ola bilmədik. Biz xoş niyyətlə danışıqlar apardıq və son və ən yaxşı təklifimizi təqdim etdik. İndi görəcəyik ki, İran bunu qəbul edəcək, ya yox."

ABŞ rəsmisi konkret fikir ayrılıqları barədə danışmaqdan imtina edib, amma Vaşinqtonun əsas tələbinin İranın uzunmüddətli şəkildə nüvə silahı əldə etməməsi ilə bağlı öhdəlik götürməsi olduğunu bir daha vurğulayıb.

Tehran isə danışıqların uğursuzluğunu "ABŞ-ın həddindən artıq tələbləri" ilə izah edir. İranın dövlət mediası bildirib ki, Vaşinqtonun Hörmüz boğazı, İranın nüvə hüquqları və digər əsas mübahisəli məsələlər üzrə təzyiqi səbəbindən heç bir çərçivə razılaşması əldə olunmayıb. "Bu diplomatik prosesin uğuru ambisiyalı və qeyri-qanuni tələblərdən çəkinməkdən, habelə İranın hüquqlarının və qanuni mənafelərinin qəbul edilməsindən asılıdır", - deyə İran Xarici İşlər Nazirliyinin (XİN) sözçüsü İsmayıl Bəqai "X" sosial media hesabındakı paylaşımda bildirib.

İslamabad danışıqları nəticəsiz başa çatsa da, bu, heç də diplomatik qapıların tam bağlanması anlamında qəbul edilməməlidir. Özlüyündə dağıdıcı müharibə şəraitində atəşkəs razılaşmasının əldə olunması və ilk müzakirələrin aparılması müsbət bir addımdır. BMT-nin Baş katibinin sözçüsü Stefan Düjarrik vurğulayıb ki, belə mürəkkəb məsələlər üzrə razılaşmanın qısa müddətdə əldə olunması real deyil və bu baxımdan konstruktiv danışıqların davam etdirilməsi vacibdir.

O, eyni zamanda qeyd edib ki, atəşkəs rejiminin qorunması xüsusi əhəmiyyət kəsb edir və bütün pozuntular dərhal dayandırılmalıdır.

### İslamabad vasitəçilik səylərini davam etdirməyə hazırdır

BMT-nin Baş katibi münaqişənin nizamlanması istiqamətində vasitəçilik səyləri göstərən Pakistan, Səudiyyə Ərəbistanı, Misir və Türkiyəyə təşəkkür edib, beynəlxalq ictimaiyyəti bu təşəbbüsləri dəstəkləməyə çağırıb.

Öz növbəsində Pakistanın Baş naziri Şahbaz Şərif İslamabadın ABŞ və İran arasındakı danışıqlarda bundan sonra da vasitəçi qismində çıxış etməyə hazır olduğunu bildirib.

Bu barədə Baş nazirin dəftərxanası onun şənbə günü İslamabadda İran nümayəndə heyətinin təmsilçiləri ilə danışıqlarının yekunlarına əsasən yaydığı məlumatda vurğulayıb.

"Baş nazir Şahbaz Şərif İranın İslamabad danışıqlarında iştirakına görə minnətdarlıq edib. O, regional və qlobal sülhün, eləcə də sabitliyin əldə olunmasına təkan vermək üçün Pakistanın vasitəçi rolunun icrasına davam etmək istəyini təsdiqləyib" - deyə, məlumatda qeyd edilib.

İslamabadda aparılan müzakirələrdə tərəflərin "qırmızı xətlərindən" biri də Hörmüz boğazı ilə bağlı olub. Tərəflər Hörmüz boğazının statusu məsələsində fərqli mövqedədirlər: İran keçidə faktiki nəzarət və tranzit üçün ödəniş almaq hüququ tələb edir, ABŞ isə onun beynəlxalq gəmiçilik üçün tam açıq olmasında israrlı mövqe tutur.

Qeyd edək ki, Hörmüz boğazı qlobal enerji sisteminin "dar keçid" nöqtəsi, beynəlxalq daşımaların əsas arteriyalarından biri kimi səciyyələndirilir. Uzunluğu təxminən 150 kilometr olan bu boğaz bəzi yerlərdə cəmi bir neçə on kilometr enə malikdir və bu xüsusiyyət onu qlobal enerji nəqliyyatının ən həssas nöqtələrindən birinə çevirir. Bu boğazdan neft axını gündə orta hesabla 21 milyon barel təşkil edir. "Bloomberg" agentliyinin məlumatına görə, Hörmüz boğazında yaranan problemlərdən əsasən neft tankerləri zərər görüb. Qlobal neft və LNG daşımalarının təxminən beşdə biri bu boğaz vasitəsilə həyata keçirilir.

### Hörmüz boğazında naviqasiya azadlığı təmin edilməlidir

Eyni zamanda, bu hadisələr qeyri-neft ticarətinin təxminən 2,4 faizini də risk altına alır. Körfəz dövlətləri qiymətli metallar, alüminium və sementin böyük ixracatçısı olduqlarından qlobal idxalçıların 4-7 faizi risklə üzləşir. Vəziyyət hələ də qeyri-sabitdir və təsirin miqyası Hörmüz boğazının faktiki bağlı qalma müddətindən asılı olacaq.

İslamabad danışıqları fiaskoya uğradıqdan sonra Donald Tramp Hörmüz boğazının blokadaya alınması barədə qərar verib. Buna uyğun olaraq ABŞ donanmasının gəmiləri regiona cəlb olunub.

Beynəlxalq birliyin mövqeyi isə ondan ibarətdir ki, tərəflərin Hörmüz boğazına nəzarəti mübahisələndirmələri yolverilməzdir. BMT rəsmisinin açıqlamasında bildirilib ki, münaqişənin bütün tərəfləri beynəlxalq hüquqa riayət etməli, o cümlədən Hörmüz boğazında naviqasiya azadlığını təmin etməlidirlər.

Bəyanatda, həmçinin qeyd olunur ki, hazırda təxminən 20 min dənizçi münaqişə səbəbindən faktiki olaraq blokadada qalıb. Boğazdan keçən dəniz daşımalarında yaranmış pozuntular qlobal iqtisadi qeyri-sabitliyin artmasına, eləcə də dünya üzrə milyonlarla həssas insan üçün ərzaq təhlükəsizliyinin daha da pisləşməsinə gətirib çıxarır.

*Mübariz ABDULLAYEV*

# İRƏVAN ZİYALILARINDAN MİRZƏ HÜSEYN HƏSƏNZADƏ İRƏVANİ



Полногласная
татарская азбука
часть I.
Введены не хватающія гласныя и исключены лишнія согласныя буквы и упрощены соединенія, чѣмъ совершенно облегчено изученіе татарской грамоты.
Составилъ: учитель I Пушкинскаго Тифл. гор. училища Г. Б. Гасанзаде.
(Адрес: Тифлисъ, Сурпъ-Саркисская 19.)
Цѣна 20 коп.
ТИФЛИСЪ
Типографія „Культура", Баронская 14.
1912

Mirzə Hüseyn Axund Hacı Baba oğlu Həsənzadə 1869-cu ildə İrəvanda anadan olmusdur. İlk təhsilini İrəvandakı şəhər ibtidai məktəbində almışdı. Sonra isə Qori Müəllimlər Seminariyasını, daha sonra Tiflis Aleksandr Müəllimlər İnstitutunun nəzdindəki qısa müddətli kursu uğurla bitirmişdir. Maarif sahəsində böyük əzmlə çalışmısdı. 1890-cı illərdə Ahısqa qəzasının Azqur kənd məktəbində, sonralar Tiflis üçüncü oğlanlar gimnaziyasında müəllim, Tiflis Puşkin adına şəhər ibtidai məktəbində müdir işləmisdi. Tiflis Xalq Universitetləri idarəsinin üzvü, Güney Qafqaz şiə ruhani idarəsində katib köməkçisi və dəfələrlə duma üzvü olmuşdu. Gürcüstanda azərbaycanlılar üçün ilk gecə məktəbini də Qori Müəllimlər Seminariyasının yetirmələri olan Ələkbər Abbasovun, İbrahimxəlil Hacılarovun Tiflis Xalq Universitetləri idarəsinin köməyi ilə o təşkil etmişdi.

Mirzə Hüseyn Həsənzadə İrəvani demokratik respublika dövründə Gürcüstanın ictimai-siyasi həyatında fəallıq göstərmiş, Gürcüstan Milli Şurasının - Parlamentinin üzvü seçilmişdi. Millət vəkili kimi Gürcüstan azərbaycanlılarının mədəni-maarif problemlərinin həllində var qüvvəsi ilə çalışmışdı. Bu illərdə o, Xarpux 2-ci məktəbində müəllim, həm də bu təhsil ocağının müdiri işləmişdi. Görkəmli ədəbiyyatşünas alim Əziz Şərif "Keçmiş günlərdən" adlı xatirələr kitabında Mirzə Hüseyn Həsənzadə İrəvanini tanınmış ziyalı, maarif xadimi kimi yüksək dəyərləndirib. Mirzə Hüseyn yaradıcı müəllimlərdən olub. O, bir neçə dərsliyin, hekayələr kitabının müəllifidir. O 1912-ci ildə Tiflisdə "Kultura" mətbəəsində çap edirmiş "Tamam əlifba" dərsliyini özünün tərtib etdiyi əlifba islahatı əsasında hazırlamışdı. 38 səhifədən ibarət olan bu kitab ibtidai məktəblərin 1-ci sinfi üçün nəzərdə tutulmuşdu. Kitab Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda (VII-802 şifrəsi ilə) qorunub saxlanılır. Bu dərslikdə ərəb əlifbasına sait səslər əlavə olunmuş və artıq samit səslər çıxarılmışdı, bağlaşmalar sadələşdirilmiş, Azərbaycan dilinin qrammatikasının öyrədilməsi asanlaşdırılmışdı. Sövqi üsulla tərtib olunmuş bu dərslikdə xeyli şəkillər, kiçik ibrətamiz mətnlər, hekayələr, şeirlər verilmişdir. Müəllif "Qabaqlama" sərlövhəli müqəddimədə yazır: "Bu tazə çıxardığım"Tamam əlifba" kitabı ilə hər bir şəxs bircə ayın içində türkcə kamil yazıb, öyrənə bilər. Çün əlifbamızdan ərəbə məxsus hərfləri atandan sonra 9 ədəd zildə məstur hürufatı artırmışam. Mənim ümidim, arxadaşlarım dərs verən müəllimlərdir. Çün bununla mənim muradım ad, ya pul qazanmaq olmayıb, yalnız millətə kömək etməkdir". Müəllif özünün tərtib etdiyi bu əlifba layihəsini öyrəymək məqsədilə gecə kursları təşkil etmişdi. Mirzə Hüseynin yazdığı bu dərsliyə böyük maraq olmuş və məktəblərdə ondan geniş şəkildə istifadə etmişlər.Kitabın sözsonunda Mirzə Hüseyn Həsənzadə yazır: "Bu kitabı mütaliə edən əşxasdan rica edirəm, əvvələn köhnəçilik etməyib, köhnə yazının təəssübünü çəkməyib, məhz dala qalmış millətimizin qabağa getmək yolunu nəzərə alıb, mənim də zəhmətimi bu yolda kömək edərmi, ya etməzmi məsələsi ilə məşğul olsunlar".

Mirzə Hüseyn dövrü mətbuatda müxtəlif imzalarla çıxış etmişdir. O, mətbuatda daha çox "H.zadə" imzası ilə çıxış etmişdi. O, yazılarında,mətbuat səhifələrində maarifin bəşər mədəniyyətindəki rolundan, insanların savada yiyələnmək zərurətindən danışır, maariflə qeyrəti vəhdətdə götürür, xalqını maarif uğrunda mübarizəyə səsləyir, ana dilində yeni məktəb quruculğunun vacibliyini qeyd edirdi. Bu baxımdan onun Tiflisdə gənclərin nəşr-məarif cəmiyyətinin "Vətən" adlı türk məcmuəsinin 1920-ci il 1-ci nömrəsində çıxan "Məarif" adlı məqaləsi səciyyəvidir. Məqalədə müəllif maarifi obrazlı şəkildə günəşə ona görə bənzədirdi ki, onun zənnincə, millətin tərəqqi yoluna işıq saçan maarifdir. Daha sonra müəllif maarifi ruh aləmi kimi obrazlandıraraq yazırdı:"İnsan üçün yeganə mədari-səadət maarif olduğu meydandadır". Məqalədə həmçinin yazır ki, "Məarif bir günəşdir ki, hər yerdə tülu edər, ziyalandırdığı məhəllələri tamamilə tənəvvür edər, afaq insaniyyəti işıqladar. Dünyada olan heyvanat və nəbatatın daim həyanlarına vasitə yeganə aydınlanan günəş olduğu kimi, aləmin də parlaqlıq saçan, tərəqqi olmasına xidmət edən maarifdir. Bu millətin rifahəti, halı, izzət və iqbalı maarif sayəsində tərəqqi edilir, maarif sayəsində aləmə işıq artıran heyrət olur". Mirzə Hüseyn Həsənzadə maarifi, mədəni tərəqqini gəlişigözəl sözlər kimi tərifləmirdi. O, maariflə səy və qeyrəti bir-birindən ayrılmaz komponentlər kimi qəbul edirdi: "Səy qeyrət olmasa, maarifdən zərrə qədər əsər görülməz. Demək olur ki, maarif bir cismdir, o cismə o hərəkət və iqtidarı verən ruh, yəni səy və qeyrətdir". Beləcə, Mirzə Hüseyn burada sadəcə xalq müəllimi kimi deyil, maarifin əhəmiyyətini dərindən dərk edib öz həmkarlarını maarif yolunda əzmlə çalışmağa, gəncləri səylə təhsil almağa çağıran ziyalı kimi çıxış etmişdi. Bu məqalə həm də regiondakı azərbaycanlı müəllimlərin pedaqoji fikir nümunəsi kimi də əhəmiyyətlidir. Qabaqcıl ziyalı, tanınmış pedaqoq Mirzə Hüseyn Həsənzadə İrəvani həmin dövrlərdə böyük ictimai, maarifçilik missiyasını həyata keçirən Əliheydər Qarayev, Əbdürrəhim bəy Haqverdiyev, Mirzə Şərif Mirzəyev, Eynəli bəy Sultanov, Hüseyn Minasazlı, Əziz Şərif, Mirzə Rza Əlizadə və digər ziyalılarla çiyin-çiyinə xalqımızın yüksəlişi uğrunda fədakarlıqla çalışmışdır. Bu ziyalılar azərbaycanlıların təhsilə olan ehtiyaclarının təmin olunmasında danılmaz xidmətlər göstərmişlər. Ömrünü xalqının maarifinə həsr etmiş Mirzə Hüseyn 1948-ci ildə vəfat etmişdir.



*Cəlal Zəngi*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Ermənistanda seçkiöncəsi gərginlik

## Karapetyan açıq şəkildə Rusiya maraqlarını müdafiə etdiyini bildirir

İyunun 7-də Ermənistanda keçiriləcək parlament seçkiləri öncəsi siyasi vəziyyət gərgin hal alır. Qeyd edək ki, hələlik ondan çox siyasi qüvvə, o cümlədən "Güclü Ermənistan" Partiyası, "Ermənistan" bloku, "Vətəndaş Müqaviləsi" Partiyası, "Birlik Qanadları" təşəbbüsü, "Ermənİ Milli Konqresi" (AMK) seçkilərdə iştirak etmək niyyətində olduqlarını açıqlayıblar. Bu siyasi qüvvələrin sayının seçkiyə qədər azalacağı da istisna edilmir - siyasi qüvvələrin əsasən 2 və ya 3 siyasi qüvvə ətrafında birləşməsi gözlənilir. Xüsusilə, hakim "Vətəndaş Müqaviləsi" Partiyasının, hazırda ən güclü müxalif qüvvə kimi təqdim edilən Samvel Karapetyanın rəhbərlik etdiyi "Güclü Ermənistan" Partiyasının və keçmiş prezident Robert Köçəryanın başçılıq etdiyi "Ermənistan" blokunun seçki marafonunu sona qədər izləcəyi proqnozlaşdırılır.

### Açıq "mikrafon" - "danışır və icra edir Rusiya"...

Siyasi çəkişmənin daha çox iki siyasi qüvvə - iqtidar və "Güclü Ermənistan" Partiyası arasında gedəcəyi gözlənilir. Xatırladaq ki, Rusiyanın "namizədi" kimi dəyərləndirilən Karapetyan artıq 9 aydır ki, ev dustaqlığındadır. Onun seçkidə iştirakı da hələlik sual altındadır - Ermənistan Konstitusiyasına görə, ölkənin baş naziri Ermənistan vətəndaşı olmalı, Ermənistan pasportu daşımalıdır. Karapetyan isə Rusiya vətəndaşıdır. Eyni zamanda, Karapetyanın seçkiöncəsi kampaniyada əsasən maddi resurslardan istifadə etməsi onu bir addım önə çıxarıb. Belə ki, Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Komitəsi "işçi" adı altında seçicilərə pul paylandığını aşkarlayıb. Paşinyan isə bunun arxasında Karapetyanın dayandığını bəyan edib.

Bu ayın ilk günündə baş nazir Nikol Paşinyanın Rusiya səfəri zamanı Karapetyanın seçkidə iştirakı məsələsi müzakirə predmeti olmuşdu. Kremldə keçirilən görüş zamanı Putin məhz Karapetyana işarə vuraraq bildirmişdi ki, "Biz çox istərdik ki, bütün bu siyasi partiyalar və siyasətçilər seçkilər zamanı bu daxili siyasi işlərdə iştirak edə bilsinlər. Bilirəm ki, Rusiya pasportu daşıyan bəziləri həbsdədir. Bu sizin qərarınızdır; biz müdaxilə etmirik, amma istərdik ki, hamısı heç olmasa bu daxili siyasi işlərdə iştirak edə bilsin".

Paşinyan isə cavabında qeyd etmişdi ki, qarşıdan parlament seçkiləri, parlament üzvləri seçkiləri və bu seçkilərin nəticələrinə əsasən, Baş nazirin seçkisidir: "Diqqətinizi yalnız Ermənistan pasportuna malik vətəndaşların bu seçkilərdə iştirak edə biləcəyinə yönəltmək istərdim. Ermənistan Respublikasının Konstitusiyasına görə, Rusiya pasportuna malik insanlar parlamentə və ya baş nazirliyə namizəd ola bilməzlər. Beləliklə, burada heç bir məhdudiyyət yoxdur".

Beləliklə, seçki həm də böyük güclərin siyasi çəkişməsinə çevrilə bilər. Rusiyanın "adamının" seçkidə iştirakına qanun icazə verməsə, prosesin hansı istiqamətdə inkişaf edə biləcəyi də böyük maraq doğurur.

### Seçki Məcəlləsinə yeni dəyişiklik - konstitusiya da icazə vermir...

Vurğulandığı kimi, seçki prosesi artıq "söz atışmasına" çevrilib. Paşinyan bildirib ki, "ilin sonuna qədər milyarderdən evsizə çevrilə biləcək Samvel Karapetyan üçün qorxur". "Güclü Ermənistan" Partiyasının şura üzvü Narek Karapetyan isə Paşinyanın sözlərinə "Evsiz ruhundan baş nazir olanda nə olar", - deyə cavab verib.

Göründüyü kimi, Ermənistan Konstitusiyası hazırda Paşinyan üçün olduqca vacib bir istinad nöqtəsinə çevrilib. Müxalifət düşərgəsi isə bildirir ki, məhz  Narek Karapetyanın adı "Güclü Ermənistan" seçki siyahısında birinci yerdə yazılacaq. Onlar həmçinin bildiriblər ki, baş nazir təyin olunana qədər S. Karapetyan artıq Ermənistan Respublikasının vətəndaşı olacaq. İndiki halda isə bu yalnız illüziya kimi görünür - çünki hazırda qanunvericilik məhz Paşinyanın dediklərini "təsdiqləyir".



Ən mühüm qərarlardan biri isə Ermənistan pardamentinin Seçki Məcəlləsinə əlavə və dəyişikliklər haqqında qanun layihəsini ikinci oxunuşda və tam şəkildə qəbul etməsi olub. Bu dəyişikliyə 67 deputat lehinə, 6 nəfər əleyhinə səs verib. Qanun layihəsinə görə, partiya blokunun adı şəxsi adlarla (xüsusi adlarla) yanaşı, dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının adlarını ehtiva edə bilməz.

### Rusiyanın "namizədi" sülhə qarşı...

Maraqlıdır ki, Rusiyanın "namizədi" olan Karapetyan "köhnə komanda"nın üzvlərini də cəlb edib. Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan da proseslərə qoşulmaq niyyətini ifadə edib. "İndi təməl qoyulduğu üçün ictimai şüurda "kollektiv müxalifət" ideyasını formalaşdırmaq və gücləndirmək vaxtı gəlib çatıb. Artıq söhbət fərdi səylərdən deyil, ortaq məqsəddən gedir. Əminəm ki, bu kollektiv müxalifət seçkilərdə qalib gələcək".

Karapetyan özü isə başqa bir dövlətin maraqlarını qoruduğunu gizlətmək belə istəmir - o, Paşinyanın Rusiya səfəri zamanı tutduğu mövqedən "qəzəbini" gizlətməyib. Seçicilərə müraciət edən Karapetyan bildirib ki, Paşinyana səs vermək ermənilərə yoxsulluq, ruslarla düşmənçilik, qütbləşmə və iqtisadi çöküş gətirəcək. "Düzünü desəm, bu kiçik qrupun liderinin davranışından qəzəbləndim. Bu, Moskvada rüsvayçılıq idi. Amma daha pisi odur ki, o, ardıcıl addımlarla ölkəmizi geosiyasi münaqişə zonasına çevirdi. Dost Rusiyanı bölgəmizdən sıxışdırmağa çalışmaq nə üçün lazım idi? Onun mövcudluğu heç vaxt Ermənistanın digər güc mərkəzləri ilə əməkdaşlığına və ticarətinə mane olmayıb. Və əminəm ki, bu, gələcəkdə buna mane olmayacaq", - deyə Karapetyan vurğulayıb. "Güclü Ermənistan"ın sədri xatırladıb ki, bu gün Ermənistanın ən dərin iqtisadi əlaqələri Rusiya ilədir. Xüsusilə, Karapetyan qeyd edib ki, Rusiya Ermənistanı ucuz qazla təmin edir, mövsümi işçiləri məmnuniyyətlə qəbul edir və Ermənistanın kənd təsərrüfatı məhsullarının əhəmiyyətli bir hissəsini alır. "Bəs bütün bunlar dayanarsa, daha da kasıblaşacaq xalqımıza hansı cavabı verəcəksiniz?",- deyə Karapetyan vurğulayıb.

Karapetyan dolayısı ilə Cənubi Qafqazdakı sülh prosesini yenidən təhdid qarşısında qoyacağını da "vəd edib". O bildirib ki, Ermənistanın məğlubiyyəti qəbuledilməzdir və Paşinyanın yenidən sülh imzalayaraq ikinci dəfə məğlubiyyət yaşatmasına imkan verməyəcək.

Beləliklə, Karapetyan Ermənistanı yenidən Rusiya orbitinə qaytaracağını indidən vəd etməyə çalışır. Ermənistan mətbuatı isə bu açıqlamaların Karapetiyanın əleyhinə işləyəcəyini düşünür. Bildirilir ki, Azərbaycanla sülh prosesinin inkişaf etdirilməsi, TRİPP layihəsinin gerçəkləşməsi Ermənistan üçün vacibdir, bu addımlar ölkəyə olduqca mühüm dividendlər vəd edir.

### Mitinqə etiraz - vətəndaşlar Karapetyana qarşı...

Bu arada aprelin 11-də Karapetyanın tərəfdarları İrəvanda mitinq və yürüş keçirib. Azadlıq Meydanında keçirilən mitinq iştirakçıları Respublika Meydanı da daxil olmaqla, İrəvanın mərkəzi küçələrindən keçərək "Samvel - Baş nazir!" və "Samvel Karapetyanla dəyiş!" şüarları səsləndiriblər. Mitinqə etiraz edən vətəndaşlar isə Karapetyanın Ermənistana xoşbəxtlik gətirməyəcəyini bildiriblər. İnsident yaşanmasa da, Karapetyanın tərəfdarları vətəndaşların bu fikirlərinə qarşı aqressiya nümayiş etdiriblər.

***SADİQ***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Dünyanı rəngləndirən güc




*Yeganə BAYRAMOVA*

Mədəniyyət təkcə keçmişdən qalan irs deyil. Hər xalqın özünəməxsus dili, musiqisi, ədəbiyyatı, incəsənəti və adət-ənənələri var. Bu zənginliklər dünyanı rəngarəng edir. Mədəniyyət anlayışı cəmiyyətin inkişafının müasir səviyyəsi, insan övladının yaratdığı və nəsildən-nəslə ötürdüyü maddi və mənəvi dəyərlərlə sıx bağlıdır.

Latın dilindən tərcümədə "julture" - "bəsləmək", "yaxşılaşdırmaq" mənalarını verən "mədəniyyət" anlayışı insanların fəaliyyət dairəsinin tədricən genişlənməsi ilə əlaqədar olaraq daha geniş bir məna daşımağa başladı. Bununla da, sözün "maarifçilik", "savad", "tərbiyə" kimi müxtəlif mənaları formalaşdı. Ərəb dilindən tərcümədə isə bu söz "şəhərsalma" mənasını verir.

**Rerix paktı...**

Yeri gəlmişkən, 15 aprel dünyada Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunur. Bu tarix 1935-ci il aprelin 15-də Vaşinqtonda "Bədii, elmi müəssisə və tarixi abidələrin mühafizəsi və qorunması haqqında" imzalanmış müqavilə ilə əlaqəlidir. Beynəlxalq hüquq təcrübəsində bu gün Rerix paktı kimi də tanınır və dünyanın bir çox ölkəsində qeyd olunur.

1935-ci ildə Nyu-Yorkda Rerix paktının rəsmi simvolu olan Sülh Bayrağına həsr olunmuş bayram tədbiri keçirilirdi. Rəssam onu ağ fonda qırmızı dairəyə daxil edilmiş üç qırmızı dairə kimi təsvir etmişdi.

Ümumiyyətlə, tarix və mədəniyyət abidələrinin xarici qüvvələrin dağıdıcı təsirindən qorunmasını tənzimləyən qaydalar ideyası məhz rəssam və filosof Nikolas Rerix tərəfindən yaradılıb.

20-ci əsrin lap əvvəllərində, müharibələr və ərazilərin yenidən bölüşdürülməsi zamanı milli antik dövr abidələrini öyrənərkən onların qorunmasının nə qədər vacib olduğunu başa düşən rəssam 1914-cü ildə Rusiya və digər hökumətlərə müraciət edir. Lakin sonradan bu müraciət cavabsız qalır. 1929-cu ildə o, müxtəlif ölkələrin hökumətlərinə və xalqlarına mədəni irsin qorunmasının hərbi zərurətdən üstünlüyünü təsdiq edən beynəlxalq müqavilənin təkmil formada işlənmiş layihəsi ilə müraciət edir. Onu bu işdə Albert Eynşteyn, Bernard Şou, Herbert Uells, Tomas Mann və o dövrün digər tanınmış mədəniyyət və elm xadimləri dəstəkləyirdi.

**Dünya mədəniyyətini formalaşdıran 5 ölkə**

Məlumdur ki, adətən ölkələrin qlobal miqyasdakı təsirləri ümumi olaraq hərbi, siyasi və ya iqtisadi gücləriylə ölçülür. Amma bəzi ölkələr mədəniyyətləri ilə iz qoyub. ABŞ-da aparılan bir araşdırmada ("US News & World Report") nüfuz, xoşbəxtlik, müasirlik, hər mənada dəblə ayaqlaşmaq və əyləncə dünyasında mühüm yer tutmaq kimi amillər nəzərə alınaraq, dünyaya ən çox təsir göstərən ölkələrin siyahısı tərtib edilib. İlk onluqdakı ölkələrin çoxu Avropada yer alarkən, Yaponiya (müasirlik və nüfuz baxımından), Brazilya (xoşbəxtlik və əyləncə mədəniyyəti) və ABŞ (müasir və qlobal təsir sahibi) kimi ölkələr də yuxarı sıralarda yer tutublar.



Beləliklə, ilk beşliyə daxil olan ölkələr...

**İtaliya**

Valentino, Armani, Versace və Gucci kimi markalarıyla məhşur olan İtaliya "dəblə ayaqlaşmaq" və "üstün olmaq" baxımından ən çox bal alan ölkədir.

**Fransa**

"Müasirlik", "nüfuz" və "dəb arxasınca getmək" baxımından yüksək bal alan Fransanın mədəni təsiri də dünya miqyasında hiss olunur. Fransız mədəniyyətini ilk əldən təcrübə edəcək ən yaxşı yer Paris olsa da, Bordo, Lyon və Tuloza da çox yaxşı və daha kiçik miqyaslı alternativ şəhərlər olaraq qəbul edilir.

**ABŞ**

ABŞ "müasirlik" və "əyləncə dünyasında təsir göstərmə" kateqoriyalarında tam xal qazanıb. Amerika filmləri, musiqiləri, televiziya proqramları dünya miqyasında seyr edilir.

**İspaniya**

Bir vaxtlar dünyanın ən böyük imperiyalarından biri olan İspaniya Cənubi Amerikadan tutmuş Cənub-Şərqi Asiyaya qədər bir çox ərazilərdə yadda qalan iz qoymuşdu. Çin dilindən sonra ispan dili dünyada ən çox danışılan ikinci dildir.

Yeməyə əhəmiyyət verilən İspaniyanın tapas (qəlyanaltı) mədəniyyəti də dünyaya yayılıb. Yemək sosiallaşmaq və paylaşmaq vasitəsi olaraq da qəbul edilir.

**Böyük Britaniya**

"Nüfuz sahibi olmaq" kateqoriyasında Böyük Britaniya yuxarı sıralarda yer tutur. Britaniyada yaşayanlar güclü bir çalışma etikası, dəyişikliyə açıq olmaq və yeni ixtiralar etmək xüsusiyyətləri ilə fəxr edirlər. Dünyanın ən yaxşı universitetlərinin bir qismi Britaniyadadır.

Bundan başqa London mədəniyyət mərkəzi olaraq tək seçim də deyil. Edinburq dünyanın ən böyük sənət festivalına ev sahibliyi edərkən Birmingham da mədəniyyət dünyasında əhəmiyyətli bir yerə getmək yolundadır. Bu şəhərdə muzey, teatr və konsert salonlarının çoxluğu ilə mədəniyyət dünyasını çox yaxından izləmək, davamlı olaraq məşğul olmaq üçün bir şey tapmaq mümkündür.

# Koronavirusun yeni variantı yayılır...

## "Cicada"dan necə qorunaq?

Son günlərdə "Cicada" adlı yeni koronavirus ştammının yayıldığına dair müxtəlif iddialar səslənir. Bu variant ilk dəfə 2024-cü ilin sonunda Afrikada aşkarlanıb və 2025-ci il ərzində bir çox ölkəyə yayılaraq 2026-cı ilin fevralına qədər ən azı 23 ölkədə qeydə alınıb.

Mütəxəssislərə görə, "Cicada" variantı daha yoluxucu ola bilər, amma xəstəliyin daha ağır keçdiyinə dair sübut yoxdur və ölüm riskini artırdığı təsdiqlənməyib. Simptomlar əvvəlki variantlara bənzəyir: boğaz ağrısı, qızdırma, öskürək, baş və əzələ ağrıları, burun axması müşahidə olunur.

Ekspertlər insanlara gigiyenaya diqqət etməyi, maska istifadə etməyi və xəstə olduqda evdə qalmağı tövsiyə edib.

## "Cicada" variantı nədir?

BA.3.2, çox sayda mutasiya-ya (təxminən 70-75) malik SARS-CoV-2 variantıdır və onu əvvəllər dominant olan JN.1 ştammlarından fərqləndirir.

"Cicada" adı variantın yenidən səthə çıxmazdan əvvəl uzun müddət aşkarlanmadığı müddətə aiddir. Daha sonra müxtəlif ştatlarda çirkab sularında və səyahətçilərdə aşkarlanıb. Bəzi bölgələrdə monitorinqin kifayət qədər olmaması səbəbindən məlumatlar məhduddur. Ümumilikdə, COVID-19 hallarının sayı azalıb, lakin bəzi yerlərdə orta və yüksək virus yükü davam edir.



Mütəxəssislər vurğulayırlar ki, "Cicada" genetik baxımdan "Omikron" kimi əvvəlki ştammlardan xeyli fərqlənir. Bu isə onun daha çox insanı yoluxdura bilməsi deməkdir, çünki mövcud immunitet kifayət qədər hazır olmaya bilər. Hətta əvvəllər "Omikron"a yoluxmuş şəxslərdə belə bu varianta qarşı anticisimlər olmaya bilər.

## Narahatlığa əsas varmı?

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən infeksionist Aynur Babayeva bildirib ki, hələlik yeni ştammın daha yoluxucu və ya təhlükəli olduğunu demək tezdir. Onun sözlərinə görə, hazırda xəstəliyin daha ağır gedişatına dair heç bir dəlil yoxdur: "Lakin çox sayda mutasiya onun immunitetdən qismən yayınması ilə bağlı narahatlıqlar doğurur. "Cicada" nın simptomları digər COVİD-19 variantlarındakılara bənzəyir: burun axıntısı, baş ağrısı, yorğunluq, asqırma, boğaz ağrısı, öskürək, dad və ya qoxuda dəyişikliklər. Bəzən şiddətli boğaz ağrısı da olur".

İnfeksionist test nəticəsi müsbət olarsa nə etməli olduğumuzla bağlı tövsiyələri də diqqətə çatdırıb: "Test nəticələri müsbət çıxdığı zaman evdə qalmaq vacibdir. Maska taxmaq, peyvənd olunmaq, istirahət etmək, simptomatik dərmanlar qəbul etmək və gigiyena qaydalarına riayət etmək əsas tədbirlərdən sayılır".

## Peyvəndlər təsir edir?

A.Babayeva qeyd edib ki, infeksiyanın qarşısının alınmasında potensial azalmaya baxmayaraq, peyvəndlər ağır xəstəliklərdən və ölümdən qorunmağa davam edir: "Xüsusilə yenilənmiş peyvəndlərin hazırlanması nəzərə alınmaqla, peyvəndləmə vacib qoruyucu tədbir olaraq qalır".

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5227
Sifariş: 492
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova